**«Razılaşdırılmışdır»**

Azərbaycan Respublikası
Maliyyə Nazirliyi

«____» ________ 2009-cu il

**«Təsdiq edirəm»**

«Atəşgah» Sığorta şirkəti ASC-nin
İdarə Heyətinin Sədri

**A.A. Əliyev**
29 aprel 2009-cu il

**Bankların və maliyyə xidmətləri göstərən digər hüquqi şəxslərin risklərinin kompleks sığortası**

# QAYDALARI

**«Atəşgah» Sığorta Şirkəti ASC**
**2009**

## Əsas anlayışlar

Bu Qaydalarda istifadə olunan terminlərin şərhi və mənası aşağıdakı anlayışlara, eləcə də Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq müəyyən edilir. Aşağıda müəyyən edilən hər bir söz (ifadə) ona bu Qaydaların hansı hissəsində rast gəlinməsindən asılı olmayaraq öz mənasını saxlayır.

| | | | |
|---|---|---|---|
| **1.** | **Sığortalıya aidiyyəti olan şəxslər** | - | Sığortalının inzibatçıları, struktur bölmələrinin rəhbərləri, qərarların qəbul edilməsində iştirak edən digər əməkdaşları və onlarla yaxın qohumluq münasibətlərində olan şəxslər (əri/arvadı, valideyni, o cümlədən ərinin/ arvadının valideyni, babası, nənəsi, övladı, nəvəsi, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı); Sığortalıda mühüm iştirak payı olan hər hansı şəxs və ya Sığortalıda mühüm iştirak payı olan hüquqi şəxs və həmin hüquqi şəxsdə mühüm iştirak payı olan hər hansı şəxs, habelə bu cür mühüm iştirak payına malik olan hüquqi şəxslərin icra orqanlarının rəhbərləri |
| **2.** | **Sığortalıya aidiyyəti olan şəxs adından hərəkət edən şəxslər** | – | aralarında bağladıqları müqavilə əsasında Sığortalıya aidiyyəti olan şəxs adından hərəkət etməyə hüququ olan şəxs;<br>– Sığortalıya aidiyyəti olan şəxsə mühüm təsir göstərə bilən hüquqi şəxs;<br>– Sığortalıya aidiyyəti olan şəxsin nümayəndəsi. |
| **3.** | **Mühüm iştirak payı** | - | səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblik. |
| **4.** | **Depozitar əməliyyatları** | – | qiymətli kağız şəhadətnamələrinin müştərilərin (deponentlərin) qiymətli kağızlara olan hüquqlarının uçotu və təsdiq olunması ilə müşayiət edilərək saxlanması, qiymətli kağızlara olan hüquqların uçotu və təsdiq edilməsi, qiymətli kağızların öhdəliklərlə yüklənməsi halları da daxil olmaqla qiymətli kağızların verilməsinin uçotu və təsdiq edilməsi üzrə müştərilərə (deponentlərə) xidmətlərin göstərilməsi ilə bağlı əmliyyatlar. |
| **5.** | **Depozit sertifikatları** | – | bank tərəfindən verilən və bankın saxlanılmaq üçün pul qoyuluşunu qəbul etməsini və müəyyən müddət başa çatdıqda pul qoyanın tələbi ilə ona və yaxud vəkalətnamə əsasında digər şəxsə qoyuluşun məbləğini faizlərlə birgə ödəmək öhdəliyi götürməsini təsdiq edən sənədlər. |
| 6. | **Yol çeki** | – | müştəri tərəfindən bank-emitentdən əldə olunan və bank-emitentin agenti olan istənilən müəssisədə nağd pula mübadilə edilməli olan ödəniş vasitəsi. |
| **7.** | **Sığortalının əmlakı** | - | Sığortalıya mülkiyyət hüququ və yaxud digər qanuni hüquqla məxsus olan əşyalar, o cümlədən:<br>a) binalar, bəzək və interyer elementləri;<br>b) mebel əşyaları;<br>c) təşkilat texnikası, məişət texnikası;<br>d) dəftərxana ləvazimatları;<br>e) seyf və anbarlar. |
| **8.** | **Sığortalının müştəriləri** | – | Sığortalının sığorta müqaviləsində göstərilən fəaliyyəti ilə bağlı onunla əqd (əqdlər) bağlamış fiziki və hüquqi şəxslər. |
| **9.** | **Kuryer (inkassator) şirkəti** | – | müqavilə üzrə qiymətli əmlakın (maliyyə sənədlərinin) daşınması xidmətlərini həyata keçirən və əgər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tələb olunursa, belə xidmətləri həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan təşkilat. |

10. **Saxta imza** – buna müvafiq qaydada icazə olmadan digər şəxsin əvəzinə imza qoyulması.

11. **Sığortalının binası** - Sığortalının baş ofisi, eləcə də onun sığortalanma üçün ərizəsində göstərilən və Sığortalıya mülkiyyət hüququ ilə yaxud digər qanuni hüquqla məxsus olan və Sığortalının öz fəaliyyətini həyata keçirməsi üçün daimi və ya müvəqqəti istifadə elədiyi digər binalar;

12. **Hüquqazidd hərəkətlər** – oğurluq, fırıldaq, qarət, soyğunçuluq, əmlakın qəsdən məhv edilməsi və ya ona zərər vurulması.

13. **Hüquqazidd dəyişikliklər** – buna müvafiq qaydada səlahiyyətlər olmadan maliyyə sənədlərinə yazılı dəyişikliklərin edilməsi.

14. **Sığortalının işçiləri** – Sığortalı üçün əmək müqaviləsi əsasında işləyən şəxslər, eləcə də işlərin təhlükəsiz yerinə yetirilməsi üçün müvafiq hüquqi və fiziki şəxsin tapşırığı ilə və ya onun nəzarəti altında hərəkət edən və ya etməli olan, onunla mülki-hüquqi müqavilə əsasında işləyən şəxslər.

15. **Terrorçuluq** - ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə.

16. **Sövdələşmə əməliyyatları** – qiymətli kağızların, törəmə qiymətli kağızların, qiymətli və digər malların, valyutanın və sair oxşar əşyaların alqı-satqısı ilə əlaqədar əməliyyatlar.

17. **Üçüncü şəxslər** – Sığortalı, Sığortalının işçiləri və onların qohumları (əri/arvadı, valideyni, o cümlədən ərinin/arvadının valideyni, babası, nənəsi, övladı, nəvəsi, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı), eləcə də Sığortalıya aidiyyatı olan və Sığortalıya aidiyyatı olan şəxsin adından çıxış edən şəxslər istisna olmaqla, istənilən fiziki və ya hüquqi şəxslər.

18. **Saxta qiymətli kağız** – aldatma (qeyri-qanuni fayda əldə etmək) məqsədilə əsli əsasında hazırlanmış və əsli ilə oxşar olan elə surətdir ki, Sığortalı bu oxşatmanı əslindən fərqləndirə bilməyərək ziyana məruz qalır. Bu Qaydalara görə həqiqi (əsil) qiymətli kağızların surəti olmayan qiymətli kağızlar saxta hesab edilmirlər.

19. **Saxta banknotlar (dəmir pullar)** – satış məqsədi üçün hazırlanmış və əsli ilə oxşar olan Azərbaycan Respublikası Milli Bankının elə saxtalaşdırılmış biletləri, metal sikkələr, xarici valyutadır ki, Sığortalı bu oxşatmanı əslindən fərqləndirə bilməyərək ziyana məruz qalır.

20. **Qiymətli əmlak**
– valyuta;
– qiymətli metal və daşlardan hazırlanmış məmulatlar;
– yarımqiymətli daşlar;
– Azərbaycan Respublikası Milli Bankının bank biletləri və metal sikkələri;
– Azərbaycan Respublikası valyutasında sənədli qiymətli kağızları;
– yol çekləri;
– qanuni qaydada mülkiyyət hüququnu və ya hər hansı gəlirlərin alınması hüququnu təsbit edən şəhadətnamələr və digər sənədlər;

21. **Qiymətli kağızlar** - müəyyənləşdirilmiş formaya və məcburi rekvizitlərə riayət olunmaqla hər hansı hüququ təsdiqləyən elə bir sənəddir ki, həmin hüquq bu sənəd olmadan (təqdim edilmədən, göstərilmədən) nə həyata keçirilə bilər, nə də başqa şəxsə verilə bilər.

**Maddə 1. Sığorta sinfi**

Bu Qaydalara əsasən təqdim olunan sığorta məhsulu sığorta obyektinə görə əmlak sığortasına aid olan qarışıq maliyyə risklərinin sığortası sinfinə aiddir.

**Maddə 2. Sığorta predməti**

Bu Qaydalara əsasən aşağıdakılar sığorta predmeti sayılır:

- Sığortalının sığortalanmış fəaliyyətinin aparılması nəticəsində məruz qaldığı gəlir itkiləri (əlavə xərclər);
- Sığortalının əmlakı;
- Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində Sığortalının sığortalanmış fəaliyyəti həyata keçirməyi ilə əlaqədar üçüncü şəxslərə vurduğu zərərin əvəzini Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödəmək öhdəliyi.

**Maddə 3. Sığortanın subyektləri**

3.1. Bu Qaydalar əsasında bağlanmış sığorta müqaviləsinə görə, Sığortaçı müqavilədə şərtləşdirilmiş sığorta haqqı müqabilində müqavilədə nəzərdə tutulmuş sığorta hadisəsinin baş verməsi halında müqavilə ilə müəyyən edilmiş sığorta məbləği həddində sığorta ödənişini həyata keçirməyi öz öhdəsinə götürür.

3.2. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada alınmış lisenziya əsasında fiziki və hüquqi şəxslərə maliyyə xidmətləri göstərməkdə ixtisaslaşan aşağakı hüquqi şəxslər təşkilati-hüquqi formasından asılı olmayaraq Sığortalı sayılırlar:

- banklar və digər kredit təşkilatları;
- investisiya şirkətləri;
- qiymətli kağızlar bazarında peşəkar fəaliyyət göstərən təşkilatlar;
- qanunla müəyyən edilmiş qaydada qeydiyyatdan keçmiş digər hüquqi şəxslər.

**Maddə 4. Sığorta obyekti**

Sığortalının aşağıdakılarla bağlı Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmayan əmlak mənafeləri sığorta obyekti sayılır:

- Sığortalının sığortalanmış fəaliyyətinin aparılması nəticəsində məruz qaldığı gəlir itkiləri (əlavə xərclər);
- Sığortalının əmlakının itməsi (məhv olması) və ya ona zərər dəyməsi;
- Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində Sığortalının sığortalanmış fəaliyyəti həyata keçirməyi ilə əlaqədar üçüncü şəxslərə vurduğu zərərin əvəzini Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödəmək öhdəliyi.

**Maddə 5. Sığorta məbləği və onun müəyyən edilməsi qaydası**

5.1. Sığorta məbləği Sığortaçı və Sığortalı arasında razılaşma əsasında aşağıdakılar üzrə müəyyən edilə bilər:

- bir sığorta riski üzrə;
- bir sığorta hadisəsi üzrə;
- sığorta müqaviləsi üzrə (ümumi sığorta məbləği).

Bir sığorta riski üzrə sığorta məbləği həmin sığorta riski üzrə sığorta müddəti ərzində baş vermiş bütün sığorta hadisələri üçün ödənilə bilən sığorta ödənişinin ən son həddidir. Bir sığorta hadisəsi üzrə sığorta məbləği bir sığorta hadisəsinin baş verməsi faktının tanınması zamanı ödənilə bilən sığorta ödənişinin ən son həddidir. Sığorta müqaviləsi üzrə ümumi sığorta məbləği bütün sığorta riskləri üzrə sığorta müddəti ərzində baş verən bütün sığorta hadisələri üçün ödənilə bilən sığorta ödənişinin ən son həddidir.

5.2. Sığortaçı ilə Sığortalı arasında razılaşma əsasında, hazırki Qaydaların 6.1.1, 6.1.4 - 6.1.6 bəndlərində göstərilən risklər üzrə sığorta məbləği sığorta hadisəsinin baş verməsi nəticəsində Sığortalının fəaliyyətinin xarakterindən və şərtlərindən asılı olaraq ona dəyə biləcək ziyanın miqdarı çərçivəsində müəyyən edilir.

Qiymətli əmlakla bağlı hazırki Qaydaların 6.1.2, 6.1.7, 6.1.8 bəndlərində göstərilən risklər üzrə sığorta məbləği Sığortalının fəaliyyətindən asılı olaraq onun binalarında və/və yaxud digər hüquqi şəxslərin məsul saxlanmasında yerləşə bilən qiymətli əmlakının dəyərindən artıq ola bilməz.
Hazırki Qaydaların 6.1.3 bəndində göstərilən risk üzrə sığorta məbləği sığorta müqaviləsinin qüvvədə olma müddətinə bərabər olan zaman müddəti ərzində Sığortalının daşınan qiymətli əmlakının və/və ya maliyyə sənədlərinin gözlənilən dəyərindən artıq ola bilməz.

5.3. Sığortalının binaları ilə bağlı hazırki Qaydaların 6.1.2 bəndində göstərilən risklər üzrə sığorta məbləği Sığortalının binalarının sığorta dəyərindən artıq ola bilməz.

5.4. Əmlakın sığorta dəyəri sığorta müqaviləsinin bağlandığı tarixə həmin əmlakın həqiqi dəyərinə bərabər olan dəyər kimi götürülür və sığorta müqaviləsində əks etdirilir.
Əmlakın həqiqi dəyəri aşağıdakılar əsasında müəyyən edilə bilər:

- eyni ərazidə analoci əmlakın tikintisinin (hazırlanmasının) dəyəri;
- eyni ərazidə yeni texniki-istismar vəziyyətində olan analoci əmlakın əldə edilmə dəyəri;
- sövdələşmə təşkilatı tərəfindən verilmiş arayış-hesab, yaxud əmlakın alqı-satqısı üzrə müqavilə;
- Sığorta müqaviləsinin bağlandığı tarixdən əvvəlki tarixdə qiymətli kağızların sövdələşmələrin başa çatdığı ana olan dəyəri. Sövdələşmələri həyata keçirən təşkilatın adı sığorta müqaviləsində göstərilməlidir. Əgər bu şərti yerinə yetirmək mümkün deyilsə, qiymətli kağızların dəyəri Sığortaçı ilə Sığortalının qarşılıqlı razılaşmasıı yolu ilə (zəruri hallarda müstəqil ekspertizanın cəlb olunması ilə), mübahisəli hallar yarandıqda isə – məhkəmə qaydasında müəyyən edilir;
- qiymətli kağızların blanklarının, sənədləşdirmələrin bərpası yaxud hazırlanması dəyəri;
- pul nişanlarının nominal dəyəri, eləcə də (xarici valyutalarla əməliyyatlar zamanı) sığorta müqaviləsinin bağlandığı tarixə Azərbaycan Respublikası Milli Bankının rəsmi valyuta məzənnəsinə uyğun olaraq müəyyən edilən dəyər;
- əgər sığorta müqaviləsində qiymətli metal və daşların dəyərinin beynəlxalq bazarda mövcud olan qiymətlərlə müəyyən edilməsi nəzərdə tutulmamışdırsa, qiymətli metal və daşların sığorta müqaviləsinin bağlandığı tarixə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq müəyyən edilən dəyəri.

5.5. Sığorta müddəti ərzində sığorta ödənişi aparılarsa, sığorta müqaviləsi onun qüvvədə olma müddəti başa çatana qədər öz etibarlılığını saxlamaqda davam edir. Bu zaman həmin sığorta müqaviləsi üzrə sığorta məbləği artıq həyata keçirilmiş sığorta ödənişinin məbləği həddində azalmış olur. Ziyana məruz qalmış obyektin (sığorta olunmuş əmlak üçün) bərpa edilməsindən sonra Sığortalı Sığortaçıya əlavə sığorta haqqı ödəməklə ilkin sığorta məbləğini bərpa etmək hüququna malikdir.

5.6. Sığorta obyektinin tam sığorta dəyərinə sığorta olunmadığı və yaxud obyektin dəyərinin artdığı təqdirdə, Sığortaçı ilə razılaşdırmaqla, Sığortalı əlavə sığorta haqqı ödəyə və sığorta məbləğini artıra bilər. Sığorta məbləğinin artması Sığortaçı ilə Sığortalı arasında əlavə razılaşma ilə rəsmiləşdirilir.

5.7. Əgər sığorta məbləğinin sığorta obyektinin həqiqi dəyərindən (sığorta dəyərindən) artıq olması aşkar olunarsa (o cümlədən, eyni obyektin iki və ya bir neçə sığoratçıda sığortalanmış olması (ikiqat sığorta) nəticəsində), sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsi etibarsız hesab olunur və artıq ödənilmiş sığorta haqqı geri qaytarılmır.
Əgər sığorta müqaviləsində sığorta məbləğinin artıq göstərilməsi Sığortalının aldatması nəticəsində olmuşdursa, Sığortaçı müqaviləni etibarsız elan etmək və bunun nəticəsində ona dəymiş ziyanın əvəzinin ödənilməsini tələb etmək hüququna malikdir.

**Maddə 6. Sığorta riskləri**

6.1. Bu Qaydalara əsasən aşağıdakı halların baş verməsi ehtimalı sığorta riskləri hesab edilir:

6.1.1. Aşağıdakıların həyata keçirilməsi zamanı, Sığortalıya zərər vurmaq, yaxud maddi fayda əldə etmək məqsədilə, həm təkbaşına, həm də digər şəxslərlə əlbir olaraq <u>Sığortalının hər hansı işçisi tərəfindən yol verilən hüquqazidd hərəkətlər nəticəsində ziyan dəyməsi</u>:

- hüquqi və (və yaxud) fiziki şəxslərə kreditlərin/borcların verilməsi;
- bank əməliyyatlarının aparılması;
- qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin həyata keçirilməsi;

- digər maliyyə xidmətlərinin, yəni hüquqi və fiziki şəxslərin pul vəsaitlərinin cəlb edilməsi və istifadə olunması ilə bağlı olan xidmətlərin göstərilməsi.

Bu Qaydalar üzrə, bu Qaydaların 6.1.1. bəndinə münasibətdə Sığortalının işçilərinin yalnız o hərəkətləri hüquqazidd hərəkətlər hesab edilir ki, həmin hərəkətlər Sığortalının buna müvafiq tapşırığı olmadan yerinə yetirilmişdir. Hadisənin bu qeyd-şərtlə əhatə edilməməsinin sübut edilməsi vəzifəsi Sığortalının üzərinə düşür.

6.1.2. Aşağıdakılar nəticəsində Sığortalıya məxsus olan binalara zərər dəyməsi və/və yaxud həmin binalarda yerləşən əmlakın, qiymətli əmlakın məhv olması (itməsi) yaxud onlara zərər dəyməsi:

- üçüncü şəxslərin hüquqazidd hərəkətləri;
- təhqiqat prosesində istintaq orqanları tərəfindən səbəbləri müəyyən olunmayan məhv olmalar (itkilər) və zərərlər;

6.1.3. Aşağıdakıların daşınması zamanı itməsi, tələf olması, yaxud onlara ziyan dəyməsi nəticəsində zərərin yaranması:

a) qiymətli əmlak - daşınma Sığortalının tapşırığı ilə xüsusi avadanlıqla təchiz edilmiş (zirehli) avtonəqliyyat vasitələrində Sığortalının əməkdaşları, yaxud da kuryer (inkassator) şirkəti tərəfindən həyata keçirilərkən;
b) maliyyə sənədləri - kuryer (inkassator) şirkəti tərəfindən daşınma həyata keçirilərkən.

Daşınmanın başlanması kimi qiymətli əmlakın və/və yaxud maliyyə sənədlərinin Sığortalı, yaxud onun tapşırığı əsasında digər şəxs tərəfindən daşınmanı həyata keçirən şəxsə imzalanmış qəbzlə verilməsi anı, başa çatması kimi isə yükün alıcıya, yaxud onun tapşırığı ilə digər şəxsə imzalanmış qəbzlə çatdırılması anı hesab edilir.

6.1.4. Aşağıdakılar üzrə əməliyyatların yerinə yetirilməsi üçün əsas olan tapşırıq, sərəncam və Azərbaycan Respublikası qanunvericiliyi ilə nəzərdə tutulan digər sənədlərin saxtalaşdırılması və yaxud onlara hüquqazidd dəyişikliklərin edilməsi:

- bank hesabı;
- depo hesabı;
- qeydiyyatdan keçmiş şəxsin şəxsi hesabı;
- emitentin şəxsi hesabı;
- emitentin emissiya hesabı;
- sövdələşmə hesabı;
- eləcə də Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq Sığortalının apara biləcəyi digər hesablar.

Bu zaman, hazırki Qaydaların 6.1.4 bəndində göstərilən hadisə yalnız aşağıdakı hallarda sığorta hadisəsi hesab edilir:

- yuxarıda göstərilən sənədlər sənədli (dokumentar) formada yerinə yetirilirsə;
- Sığortalının göstərilən sənədlərlə əməliyyatlar aparan işçisi sənədlərin əslinin nümunələrinə malikdirsə;
- Sığortalının işçisi yuxarıda qeyd olunan sənədlərin əslinin müəyyən olunmasının təmin edilməsi ilə bağlı Sığortalının təlimatlarının, eləcə də tənzimləyici və/və yaxud nəzarətedici orqanların müəyyən etdiyi bütün tələblərə uyğun olaraq yerinə yetirmişdirsə. Bu zaman, hadisənin bu şərtlə əhatə edilməməsini sübut etmək vəzifəsi Sığortalının üzərinə düşür.

6.1.5. Aşaığıdakı qiymətli kağızlarla əməliyyatlar (iş) nəticəsində ziyan dəyməsi:

- saxta imza və yaxud digər hüquqazidd dəyişiklikləri daxil edən sənədlər;
- saxta olan sənədlər;
- üçüncü şəxslərin hüquqazidd hərəkətləri nəticəsində itirilən sənədlər.

Yalnız aşağıdakı hallarda bu Qaydaların 6.1.5 bəndində göstərilən hadisə sığorta hadisəsi hesab edilir və sığorta ödənişi həyata keçirilir:

a) qiymətli kağızlar sənəd formasında yerinə yetirilmişdir və bu zaman Sığortalının qiymətli kağızlarla işləyən işçisi qiymətli kağızların əslinin nümunələrinə malik olmuşdur;

b) Sığortalının işçisi yuxarıda qeyd olunan sənədlərin əslinin müəyyən olunmasının təmin edilməsi ilə bağlı Sığortalının təlimatları ilə, eləcə də tənzimləyici və/və yaxud nəzarət edici orqanlar tərəfindən müəyyən olunan bütün tələbləri lazımi qaydada yerinə yetirmişdir. Bu zaman, hadisənin bu şərtlə əhatə edilməməsini sübut etmək

vəzifəsi Sığortalının üzərinə düşür.

6.1.6. Sığortalı tərəfindən istənilən ölkənin saxta banknotu və ya metal pulunun ödəniş vasitəsi kimi qəbul edilməsindən ziyan dəyməsi, bu şərtlə ki, vayutanın həqiqiliyinin müəyyən edilməsi üçün Sığortalı tərəfindən istifadə olunan standart detektorlar saxta pulları aşkar edə bilmir və qəbul edilən saxta banknotların (metal pulların) surəti olduğu banknotlar (metal pullar) dövriyyədən çıxmamışdır.

6.1.7. Üçüncü şəxslərin hüquqazidd hərəkətləri nəticəsində, Sığortalının məsul saxlanmasında yerləşən və Sığortalının müştərisinə məxsus olan qiymətli əmlakın məhv olması (itməsi) və yaxud həmin əmlaka zərər dəyməsi nəticəsində Sığortalının zərərə məruz qalması.

6.1.8. Sığortalı tərəfindən digər hüquqi şəxslərə məsuliyyətlə saxlanması üçün verilən Sığortalının qiymətli əmlakına zərər dəyməsi və ya həmin əmlakın məhv olması (itməsi), o hallarda ki, həmin əmlak:

a) digər hüquqi şəxsin binalarında məsuliyyətlə saxlanması üçün yerləşdirilmiş olsun;
b) Sığortalının qeydçisinə verilmiş olsun;
c) Sığortalının transfer-agentinə verilmiş olsun;
d) mülki-hüquqi sazişlərin (qiymətli kağızlara münasibətdə, eləcə də əgər broker Sığortalıdan alınmış pul vəsaitlərinin saxlanması üzrə öhdəliyi nəzərdə tutuan komissiya müqaviləsi üzrə hərəkət edirsə, nağd pula (valyutaya) münasibətdə) həyata keçirilməsi üçün hüquqi şəxs olan və Sığortalı ilə müqaviləyə əsasən hərəkət edən brokerə verilərək onun binalarında yerləşmiş olsun;
e) digər banka girov qoyulmuş olsun.

Sığortalının depozitarı və Sığortalının qeydçisi funksiyalarını yerinə yetirən təşkilatlar, eləcə də Sığortalının qiymətli əmlakı verilmiş yuxarıda sadalanan digər hüquqi şəxslər sığorta müqaviləsində göstərilməlidir.
Hazırkı Qaydaların 6.1.8 bəndi üzrə hazırki Qaydaların 6.1.2, 6.1.3 bəndlərində sadalanan hadisələr sığorta hadisələri sayılmır.

6.2. Bir səbəb üzündən baş verən bir neçə ziyana bir sığorta hadisəsi kimi baxılır.

**Maddə 7. Sığorta risklərindən istisnalar və (və ya) sığorta təminatında məhdudiyyətlər**

7.1. Bu Qaydalar üzrə aşağıdakılar maliyyə gəliri (maddi gəlir) hesab edilmir:

- Sığortalının işçilərinin əmək ödənişi və onun artırılması;
- qonorarlar, komisyon mükafat;
- mənfəətdə iştirak;
- qanuni gəlirin və ya mükafatın digər növləri, işgüzar qəbullarda iştirak, qiymətli hədiyyələr, gediş haqqının, yeməyin, məzuniyyətin ödənilməsi və digər oxşar gəlirlər daxil olmaqla.

7.2. Hazırki Qaydalar üzrə aşağıdakılar sığorta hadisələri hesab edilmir və bunlara görə sığorta ödənişi verilmir:

7.2.1. Sığorta müqaviləsinin qüvvəyə minməsindən əvvəl baş verən hallar və sığorta müqaviləsinin qüvvəyə minmə tarixində artıq Sığortalıya məlum olan səbəblər üzündən sığorta müqaviləsinin qüvvədə olma müddəti ərzində baş verən hallar.

7.2.2. Hazırki Qaydaların 6.1.1 bəndində qeyd olunmuş hallar istisna olmaqla, birbaşa və yaxud dolayısı ilə Sığortalının işçilərinin qəsdən etdikləri, eləcə də hər hansı digər hüquqazidd hərəkətləri nəticəsində baş verən hallar. Bu zaman, hazırki Qaydalara uyğun olaraq bağlanmış sığorta müqaviləsi üzrə zərərlərin tənzimlənməsinin bütün mərhələlərində sığorta hadisəsinin əlamətləri olan hadisələrin həmin istisnaya aid olmamasını sübut etmək vəzifəsi Sığortalının üzərinə düşür.

7.2.3. Hazırki Qaydaların 6.1.1, 6.1.4, 6.1.5 bəndlərində göstərilən hallar istisna olmaqla, tamamilə və ya qismən Sığortalının müştəriləri tərəfindən borc və ya kreditlər (o cümlədən, fırıldaq yolu ilə alınmış borc və kreditlər) üzrə qaytarılma və ya digər öhdəliklərin tam və ya qismən yerinə yetirilməməsi nəticəsində baş verən hallar.

7.2.4. Tam və yaxud qismən olaraq, aşağıdakı şəxslərə kreditlərin, borcların verilməsi:

- Sığortalıya aidiyyəti olan şəxslərə və ya Sığortalıya aidiyyəti olan şəxslərin adından çıxış edən şəxslərə
- Sığortalıya aidiyyəti olan şəxslərin və ya Sığortalıya aidiyyəti olan şəxslərin adından çıxış edən şəxslərin işçilərinə

- Sığortalıya aidiyyəti olan şəxslərin və ya Sığortalıya aidiyyəti olan şəxslərin adından çıxış edən şəxslərin işçilərinin qohumlarına
- Sığortalıya aidiyyəti olan şəxslərin və ya Sığortalıya aidiyyəti olan şəxslərin adından çıxış edən şəxslərin qohumlarına

7.2.5. Hazırki Qaydaların 6.1.1 bəndində şərtləşdirilmiş hallar istisna olmaqla, Sığortalı tərəfindən ödənişlərin, köçürmələrin, pul vəsaitlərinin göndərilməsinin və hesablar üzrə digər əməliyyatların səhvən (üçüncü şəxslərin təqsiri olmadan) aparılması nəticəsində baş verən hallar.

7.2.6. Sığortalının müştərisinin şəxsi depozit seyfində saxlanılan qiymətli əmlaka zərər dəyməsi halları;

7.2.7. Hazırki Qaydaların 6.1.1 – 6.1.4 bəndlərinə uyğun olaraq sığorta hadisəsi hesab olunan hallar istisna olmaqla, satılmaq üçün Sığortalıya verilmiş, lakin satılmamış yol çeklərinin itirilməsi nəticəsində baş verən hallar (bu şərtlə ki, Sığortalının məsuliyyət daşıdığı yol çekləri sonradan emitent tərəfindən ödənilmiş və yaxud ödənilmək üçün qəbul edilmiş olsun).

7.2.8. Hazırki Qaydaların 6.1.1 bəndində göstərilən hadisələr istisna olmaqla, Sığortalının kompüter şəbəkəsi vasitəsilə ödəniş barəsində təlimat və yaxud məlumatlar alması nəticəsində baş verən hallar.

7.2.9. Hazırki Qaydaların 6.1.1 bəndində göstərilən hallar istisna olmaqla, dövlət poçt xidmətinə göndərilmək üçün tapşırılmış qiymətli əmlakın itirilməsi nəticəsində baş verən hallar.

7.2.10. Maliyyə xidmətləri sahəsindəki münasibətləri tənzimləyən Azərbaycan Respublikası qanunvericiliyinin, normativ-hüquqi aktların və normativ sənədlərin tələblərinin, işlərin təhlükəsiz aparılması, binaların və qiymətli əmlakın mühafizəsi üzrə normaların Sığortalı tərəfindən yerinə yetirilməməsi nəticəsində baş verən hallar (göstərilən normalardan kənarlaşmaların müvafiq dövlət nəzarət orqanları ilə razılaşdırıldığı hallar istisna olmaqla).

7.2.11. Yalnız yanlış məlumat ehtiva edən qiymətli kağızlarla əməliyyatlar nəticəsində baş verən hallar (əgər onlar hazırki Qaydalar üzrə saxta hesab olunmurlarsa).

7.2.12. Dövlət orqanlarının sərəncamı ilə əmlakın müsadirə edilməsi, həbsi və ya məhv edilməsi nəticəsində baş verən hallar.

7.2.13. Sığortalının müştərisinin və/və yaxud Sığortalının işçilərinin təqsiri üzündən baş verən, hazırki Qaydaların 6.1.7 bəndində göstərilən hallar.

7.2.14. Sığortalının işçilərinin təqsiri üzündən baş verən, hazırki Qaydaların 6.1.8 bəndində göstərilən hallar.

7.2.15. Qiymətli əmlaka aid olmayan, maqnit daşıyıcılarına daxil edilmiş informasiya və məlumatların itməsi və yaxud onlara zərər dəyməsi, eləcə də hesablar üzrə hər hansı elektron keçiricilərdə olan dayanmalar (səhvlər) nəticəsində baş verən hallar.

7.2.16. Kompüter proqramlarına, kompüter məlumatlarına, məlumat yığıcılara (maqnit lentləri, disklər və digər daşıyıcılar) zərər dəyməsi nəticəsində baş verən hallar.

7.2.17 Bilavasitə, yaxud dolayısı ilə terrorçuluğun səbəb olduğu hallar; bu zaman ziyanın bu istisnaya aid olmamasını sübut etmək vəzifəsi Sığortalının üzərinə düşür.

7.2.18. Sığortalının təsisçilərinin, iştirakçılarının, səhmdarlarının (onların nümayəndələrinin) hərəkətləri, yaxud səhvləri nəticəsində baş verən hallar (Sığortalının təsisçilərinin, iştirakçılarının, səhmdarlarının (onların nümayəndələrinin) Sığortalının içiləri kimi Sığortalının idarəetmə orqanlarının sərəncamı ilə hərəkət etdiyi hallar istsina olmaqla).

7.2.19. Sığortalının işçilərinin hazırki Qaydaların 6.1.1 bəndinə uyğun olaraq maliyyə (maddi) gəliri alınmasına gətirib çıxarmayan hüquqazidd hərəkətləri nəticəsində baş verən hallar.

7.2.20. Hazırki Qaydaların 6.1.1, 6.1.4, 6.1.5 bəndlərində göstərilmiş hallar istisna olmaqla, Sığortalı ilə onun kontragenti arasında müqavilə üzrə öhdəliklərin yerinə yetirilməməsi nəticəsində baş verən hallar.

7.2.21. Hazırki Qaydaların 6.1.1 - 6.1.3, 6.1.7 bəndlərində göstərilən hallar istisna olmaqla, həm əsl, həm də saxta qaimələr, anbar qəbzləri, vəkalətnamələr və yaxud təyinatına görə göstərilən sənədlərə oxşar olan hər hansı digər sənədlərlə əməliyyatların aparılması nəticəsində baş verən hallar.

7.2.22. Hazırki Qaydaların 6.1.1, 6.1.4 - 6.1.6 bəndlərində göstərilən hadisələr istisna olmaqla, hər hansı sövdələşmə əməliyyatlarının aparılması nəticəsində baş verən hallar.

7.2.23. Əmlakın təbii köhnəlməsi, aşınması, tədricən dağılması nəticəsində, eləcə də əmlaka güvə yaxud digər həşaratlar, kəsəyənlər tərəfindən, göbələklər ilə zərər dəyməsi nəticəsində baş verən hallar.

7.2.24.Müharibə, xarici düşmənlərin hərbi fəaliyyəti, təcavüzü, döyüş hərəkətləri, (müharibənin elan edilib-edilməməsindən asılı olmayaraq), bunt, üsyan, qiyam, inqilab, vətəndaş çaxnaşmaları, müharibə vəziyyətinin tətbiq olunması və hakimiyyətin zəbt edilməsi, komendant saatının tətbiq edilməsi və ya qanuni hakimiyyət nümayəndələrinin hərəkətləri nəticəsində baş verən hadisələr; bu zaman sığorta müqaviləsi üzrə zərərlərin tənzimlənməsinin bütün mərhələlərində (arbitrac və ya məhkəmə araşdırması daxil olmaqla) ziyanın həmin istisnaya aid olmamasını sübut etmək vəzifəsi Sığortalının üzərinə düşür.

7.2.25. Hazırki Qaydaların 6.1.1 bəndində göstərilən hadisələr istisna olmaqla, elektron məlumatların daxil edilməsi, modifikasiyası, ləğv edilməsi nəticəsində baş verən hallar.

7.2.26. Sığortaçının «Əmlakın yanğından və digər risklərdən sığortası Qaydaları»nda nəzərdə tutulmuş hadisələr nəticəsində baş verən hallar, bu şərtlə ki, Sığortalının bu Qaydalar üzrə sığorta obyekti olan əmlakı Sığortaçının «Əmlakın yanğından və digər risklərdən sığortası Qaydaları»na əsasən bağlanmış sığorta müqaviləsi üzrə artıq sığortalanmış olsun.

**Maddə 8. Azadolma məbləği**

8.1. Sığortaçı və Sığortalı sığorta müqaviləsində ziyanın əvəzinin Sığortaçı tərəfindən ödənilməli olmayan miqdarını – azadolma məbləğini müəyyən edə bilərlər.

8.2. Azadolma məbləği şərti və yaxud şərtsiz ola bilər və sığorta məbləğinin faizi nisbətində, yaxud pul ekvivalentində ifadə edilə bilər.

8.3. Şərti azadolma məbləği müəyyən olunarkən, əgər ziyan azadolma məbləğinin miqdarından artıq deyilsə, Sığortaçı sığorta ödənişi həyata keçirmir, lakin əgər ziyan azadolma məbləğindən artıqdırsa, sığorta ödənişi tam həcmdə aparılır.

8.4. Şərtsiz azadolma məbləği müəyyən olunarkən, Sığortaçı bütün hallarda sığorta ödənişini azadolma məbləği çıxılmaqla aparır.

**Maddə 9. Sığorta haqqı**

9.1. Sığorta haqqı dedikdə, Sığortalının sığorta müqaviləsi ilə müəyyən olunan qaydada və müddətdə sığortaya görə Sığortaçıya ödəməli olduğu haqq nəzərdə tutulur. Sığorta haqqı sığorta tarifləri əsasında hesablanır.

9.2. Sığorta haqqını nağdsız formada ödəyərkən Sığortalı ödəniş tapşırığında sığorta haqqının ödənilməsinin əsasını təşkil edən Sığorta müqaviləsinin, yaxud Sığorta şəhadətnaməsinin nömrəsinə istinad etməlidir

9.3. Sığorta haqqının ödənilməsi qaydası və forması Sığorta müqaviləsinin şərtlərinə uyğun olaraq həyata keçirilir.

9.4. Sığorta haqqı onun Sığortaçının bank hesabına daxil olduğu və ya Sığortaçı tərəfindən nağd ödəniş formasında alındığı gün ödənilmiş hesab olunur.

9.5. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 9.6-cı bəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 (on beş) günədək müddət müəyyən edə bilər.

9.6. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi Sığorta müqaviləsi bağlandığı gündən bir aydan gec olmayaraq ödənilməlidir.

**Maddə 10. Sığorta müqaviləsinin bağlanması, həmçinin ona əlavə və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası**

10.1. Sığorta müqaviləsi Sığortalı ilə Sığortaçı arasında elə razılaşmadır ki, bu razılaşmaya görə Sığortaçı müqavilə ilə şərtləşdirilmiş, Sığortalının ödədiyi sığorta haqqı müqabilində müqavilədə nəzərdə tutulan sığorta hadisəsinin baş verdiyi halda həmin hadisə nəticəsində Sığortalıya dəymiş zərərin əvəzini müqavilə ilə müəyyənləşdirilmiş sığorta məbləği həddində ödəməyi - sığorta ödənişi verməyi öhdəsinə götürür.

10.2. Sığorta müqaviləsini bağlamaqdan ötrü Sığortalı özünə məlum olan, Sığortaçının sığorta riskinin dərəcəsini müəyyənləşdirməsinə təsir edə biləcək halları özündə əks etdirən, müəyyən olunmuş formada yazılı ərizəni dolduraraq Sığortaçıya təqdim etməlidir. Bu ərizə Sığorta müqaviləsinin tərkib hissəsi hesab edilir.

10.3. Sığortalının ərizəsində aşağıdakı məlumatlar öz əksini tapmalıdır:
- 10.3.1. Sığortalının adı, ünvanı və telefon nömrəsi;
- 10.3.2. Sığortala obyekti haqqında məlumat;
- 10.3.3. Riskin dərəcəsini və sığorta haqqını müəyyənləşdirmək üçün lazım olan digər məlumatlar.

10.4. Sığorta müqaviləsi yazılı formada aşağıdakı kimi bağlanır:
- 10.4.1. Tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsini tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;
- 10.4.2. Bu Qaydalar ilə Sığortalının razı olmasını təsdiq etməsi şərti ilə Sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;

10.5. Sığorta şəhadətnaməsi tərtib olunduğu halda, sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

10.6. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan Sığortalı bu barədə sığortaçılardan hər birinə məlumat verməlidir. Həmin məlumatda digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır.

10.7. Sığorta obyekti bir neçə sığortaçıda sığortalandığı halda, sığortaçılar Sığortalı qarşısında birgə məsuliyyət daşıyırlar.

10.8. Sığorta müqaviləsi müqavilələrin etibarlılığı barədə Azərbaycan Respublikasının mülki qanunvericiliyində nəzərdə tutulmuş ümumi şərtlərə uyğun olmalıdır.

10.9. Sığorta müqaviləsi ilə verilən sığorta təminatı sığorta müqaviləsi qüvvəyə mindikdən sonra baş verən sığorta hadisələrinə şamil olunur.

10.10. Sığorta müqaviləsi 1(bir) il müddətinə və yaxud Sığortaçı ilə Sığortalı arasında razılaşdırılmış digər müddətə bağlanır.

10.11. Sığorta müqaviləsinə tərəflərin qarşılıqlı razılığı ilə əlavə və dəyişikliklər edilə bilər.

10.12. Sığorta müqaviləsinə edilən əlavələr və dəyişikliklər yazılı formada tərtib olunmalı və hər iki tərəfdən imzalanmalıdır.

10.13. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:
- 10.13.1. Sığorta predmeti artıq mövcud olmadıqda;
- 10.13.2. Qanunvericilikdə müəyyən edilmiş hallar hallar istisna olmaqla, Sığortalı hüquqi şəxs ləğv olunduqda:
- 10.13.3. Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;
- 10.13.4. Sığortaçı Sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;
- 10.13.5. Sığorta marağı artıq mövcud olmadıqda;

10.13.6. Sığortalı sığorta haqqını qanunvericilikdə və Sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;
10.13.7. Qanunvericilikdə müəyyən edilmiş digər hallarda.

10.14. Əgər sığorta müqaviləsi qüvvəyə mindikdən sonra, sığorta hadisəsinin baş vermə ehtimalı aradan qalxmışdırsa və sığorta riskinin mövcudluğu sığorta hadisəsindən başqa digər hallar üzündən başa çatmışdırsa, sığorta müqaviləsi bağlandığı müddətin başa çatmasından əvvəl sona yetir. Belə hallara, o cümlədən aid edilir:

- Sığorta olunmuş əmlakın sığorta hadisəsi deyil, hər hansı digər səbəblər üzündən məhvi;
- Müəyyən olunmuş qaydada Sığortalının sahibkarlıq fəaliyyətinin dayandırılması.

10.15. Bu Qaydaların 10.13-cü bəndində göstərilən hallarda Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi üçün əsas olan şərait yarandıqda, Sığorta müqaviləsinə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

10.16. Sığorta müqaviləsində nəzərdə tutulmuş hallarda, həmçinin tərəflərin başqa cür razılaşmasına əsasən, sığorta müqaviləsinə Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı 30 (otuz) gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 (altmış) gün, üç aydan az müddətə bağlanmış olduqda isə 5(beş) iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir. Belə bildiriş Sığorta müqaviləsinin ləğvi tarixini özündə əks etdirməklə Sığortalının və ya Sığortaçının Sığorta müqaviləsində göstərilən ünvanına göndərildikdə, Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən ləğv edilmiş sayılır. Bu bildirişin poçt vasitəsilə göndərilməsi, yuxarıda göstərildiyi kimi, həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi ücün kifayətdir və Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən və vaxtdan etibarsız sayılacaq.

10.17. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, Sığortaçı həmin Sığorta müqaviləsi üzrə işlərin aparılması xərclərini çıxmaqla Sığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını ona qaytarır;

10.18. Sığorta müqaviləsinə Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqqını bütünlüklə Sığortalıya qaytarır; əgər bu tələb Sığortalının Sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı həmin Sığorta müqaviləsi üzrə işlərin aparılması xərcləri çıxılmaqla, Sığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını qaytarır.

10.19. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı Sığortalıya qaytarılmır.

10.20. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının Sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 10.17-ci və 10.18-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

10.21. Sığorta müqaviləsi üzrə sığorta haqqının yenidən hesablanmalı olması halında Sığortaçı bunlardan hansının daha yüksək olmasından asılı olaraq, artıq qazanılmış sığorta haqqını və ya hər hansı minimal və (və ya) depozit sığorta haqqının qısamüddətli hissəsini saxlamaq hüququna malikdir.

**Maddə 11. Tərəflərin hüquq və öhdəlikləri**

11.1. Sığortaçı aşağıdakıları öz öhdəsinə götürür:

11.1.1. Sığortalıya hazırki Qaydalar əlavə olunmaqla sığorta şəhadətnaməsi vermək;

11.1.2. sığorta hadisəsi baş verdikdə hazırki Qaydalarla müəyyən edilmiş qaydada sığorta ödənişini həyata keçirmək;

11.1.3. sığorta ödənişini verməkdən imtina etdikdə, imtinanın səbəblərini əsaslandırmaqla Sığortalını bu barədə yazılı xəbərdar etmək;

11.1.4. özünün peşəkar fəaliyyəti nəticəsində Sığortalı ilə bağlı əldə etdiyi məlumatları açıqlamamaq.

11.2. Sığortalı aşağıdakıları öz öhdəsinə götürür:

11.2.1. sığorta haqqını vaxtında ödəmək;

11.2.2. sığorta müqaviləsi bağlanarkən, sığorta riskini müəyyənləşdirmək üçün əhəmiyyət kəsb edən və ona məlum olan bütün hallar, eləcə də həmin sığorta obyekti ilə əlaqədar bağlanmış, yaxud bağlanılan bütün sığorta müqavilələri barədə Sığortaçıya məlumat vermək;

11.2.3. sığorta hadisəsinin əlamətlərinə malik olan hərəkətlər və hadisələrlə bağlı Sığortalıya qarşı irəli sürülən iddialardan müdafiə ilə bağlı xərcləri çəkmək;

11.2.4. əgər Sığortaçı həm öz, həm də Sığortalının mənafelərinin qorunması üçün səlahiyyətli şəxsini təyin etməyi zəruri hesab edərsə, Sığortaçının göstərdiyi şəxslərə vəkalətnamə (etibarnamə) və digər zəruri sənədləri vermək;

11.2.5. məhkəmə və məhkəmədənkənar müdafiədə Sığortaçıya hər bir mümkün köməyi göstərmək;

11.2.6. əgər Sığortaçının Sığortalının mənafelərinin müdafiəsi zamanı çəkdiyi xərclər sığorta müqaviləsinə uyğun olaraq ödənilməli olan məbləğdən artıqdırsa, həmin artıq məbləği Sığortaçıya ödəmək;

11.2.7. hüquqi müdafiə prosesində Sığortaçı tərəfindən onun adından əldə olunmuş razılaşmalar üzrə öhdəliklərin icrasından əsas olmadan imtina etməmək;

11.2.8. Sığortalının yenidən təşkili, eləcə də idarəetmə orqanlarında dəyişikliklər edilən zaman:

- belə dəyişikliyin baş verdiyi andan 30 (otuz) gün ərzində həmin fakt barədə Sığortaçıya yazılı məlumat vermək (əgər bildiriş Sığortalı tərəfindən yazılı formada göndərilmiş və ona dair Sığortaçıdan yazılı təsdiq əldə edilmişdirsə, Sığortaçıya bildirişin verilməsi yerinə yetirilmiş sayılır);
- Əgər Sığortaçıya lazım olarsa, zəruri əlavə məlumatları ona operativ surətdə təqdim etmək;
- Sığorta müqaviləsinin mümkün dəyişikliklərlə qüvvədə qalmasına Sığortaçının yazılı razılığını almaq;
- sığorta müqaviləsinə dəyişikliklərin Sığortaçıdan alındığı andan 10 (on) gün ərzində onu təklif olunan müddət və şərtlərlə razılaşdığı barədə yazılı xəbərdar etmək;
- Qanunvericilik və sığorta müqaviləsi ilə tələb olunduğu hallarda Sığortaçıya əlavə sığorta haqqı ödəmək.

Sığortalının bu öhdəlikləri yerinə yetirilmədiyi hallara onun sığortanı daha davam etdirməmək qərarı kimi baxıla bilər.

11.2.9. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində yeni filialların (əlavə ofislərin, bölmələrin) açılması halında, əgər Sığortalı bu Qaydalara uyğun olaraq bağlanmış sığorta müqaviləsinin yeni filalların (əlavə ofislərin, bölmələrin) fəaliyyətinə, əmlakına şamil olunmasını istəyirsə, bu barədə Sığortaçıya yeni filialların (əlavə ofislərin, bölmələrin) açılmasına 30 (otuz) gün qalmış məlumat vermək və əgər təyin olunarsa, əlavə sığorta haqqını ödəmək;

11.2.10. sığorta müqaviləsi bağlanarkən, əsas ofisdən başqa, bu Qaydalar üzrə sığortanın şamil olunduğu Sığortalının bütün filiallarını, eləcə də bölmələrini və əlavə ofislərini göstərmək;

11.2.11. Sığortaçının tələbi ilə və Sığortaçının müəyyən etdiyi tarixdə və yerdə ekspertiza üçün mühasibat hesabatları da daxil olmaqla, zəruri sənədləri təqdim eləmək, Sığortaçıya öz təhqiqatını aparmağa, o cümlədən Sığortalının hər hansı əməkdaşı və ya digər şəxslərlə söhbət etməsinə imkan yaratmaq, yaranan ziyanla bağlı üçüncü şəxslərə münasibətdə istənilən hərəkətlərin həyata keçirilməsi üçün bütün zəruri sənədləri Sığortaçıya təqdim etmək və bütün formal prosedurları yerinə yetirmək;

- Sığortalının rəhbərliyi tərəfindən təsdiq olunan və sığorta hadisəsinin əlamətlərinə malik olan hadisənin baş verməsini təsdiqləyən sənədləri, eləcə də digər zəruri məlumatları həmin hadisənin baş verdiyi andan 30 gün ərzində Sığortaçıya təqdim etmək; bu zaman ziyanın sığorta hadisəsinin nəticəsində baş verməsini təsdiq edən sübutların toplanması, eləcə də aşağıda sadalanan hadisələrə münasibətdə təqsirli şəxslərin aşkar edilməsi Sığortalının borcudur:
- hazırki Qaydaların 6.1.1 bəndində göstərilən hallar: Sığortalı ziyana görə məsuliyyət daşıyan şəxsi, həmin ziyanın hansı qeyri-qanuni hərəkət nəticəsində baş verməsini müəyyən etməli; şəxsin kredit alarkən yaxud sövdələşmə sazişi bağlayarkən əldə etdiyi qeyri-qanuni şəxsi faydanın miqdarını, həmin ziyana bilavasitə

qeyri-qanuni hərəkətlər nəticəsində məruz qaldığını sübüt etməlidir;

- hazırki Qaydaların 6.1.4 və 6.1.5 bəndlərində göstərilən hallar: Sığortalı sübut etməlidir ki, sənəd saxta imzanı ehtiva edir, saxtadır və ya həmin sənəddə qəsdən hüquqazidd dəyişikliklər edilmişdir;

11.2.12. sığorta olunmuş obyektin sığortalandığı risklə bağlı sığorta hadisəsi nəticəsində ziyan çəkməsi və bu ziyanın müvafiq sığorta ilə əhatə olunmayan, lakin ziyan vura bilən iqtisadi vəziyyətin dəyişməsi və yaxud digər səbəblər üzündən baş verməməsi barədə sübutları toplamaq və təqdim etmək;

11.2.13. sığorta ödənişini aldıqdan sonra ödənilmiş məbləğ həddində zərərin üçüncü şəxslərdən geri alınması üçün bütün hüquqları Sığortaçıya vermək;

11.2.14. sığorta müqaviləsi bağlanan zaman və müqavilənin qüvvədə olduğu dövrdə Sığortaçıya məlumat verilmiş hallarda baş verən və ona məlum olan əhəmiyyətli dəyişikliklər barədə, əgər bu dəyişikliklər sığorta riskinin artmasına əhəmiyyətli dərəcədə təsir edə bilərsə, dərhal Sığortaçını xəbərdar etmək; "əhəmiyyətli dəyişikliklər"- dedikdə, sığorta müqaviləsində və hazırki Qaydalarda şərtləşdirilmiş dəyişikliklər hesab edilir.

11.2.15. Dərhal, ancaq istənilən halda sığorta hadisəsinin əlamətləri olan hadisənin baş verməsində təqsirli şəxslərdən və ya zərərvuran üçüncü şəxslərdən dəymiş zərərin əvəzini aldığı tarixdən 3 (üç) gündən gec olmayaraq bu barədə Sığortaçıya məlumat vermək. Əgər Sığortalı zərərvuran şəxslərdən zərərin əvəzini sığorta ödənişi verildikdən sonra almışdırsa, Sığortalı ona dəymiş zərərin məbləğindən artıq aldığı məbləği Sığortaçıya geri qaytarmalıdır.

11.2.16. Sığortaçının yazılı razılığı olmadan, başqasına vurduğu ziyanları ödəməmək, ona qarşı irəli sürülən tələbləri heç bir halda tanımamaq, eləcə də belə tələblərin tənzimlənməsi ilə bağlı öz üzərinə hər hansı birbaşa, yaxud dolayı öhdəlik götürməmək.

11.3. Sığortalı sığorta hadisəsinin əlamətləri olan hallar ona məlum olduqdan sonra aşağıdakıları etməlidir:

11.3.1. bu Qaydalarda nəzərdə tutulmuş müddətdə Sığortaçıya hadisənin baş verməsi və həmin hadisənin ona məlum olan bütün halları barədə yazılı formada təsdiq edilmiş məlumatları Sığortaçıya təqdim etməlidir.
Bu zaman, aşağıdakılardan asılı olmayaraq Sığortalı əsaslı şəkildə nəzərdən keçirilə bilən mümkün, yaxud artıq baş vermiş sığorta hadisəsinin əlamətlərinə malik olan faktlar haqqında məlumat əldə edən kimi hadisə aşkar edilmiş sayılır:

- ziyana səbəb olan, yaxud ziyanın yaranmasına təsir edən hadisənin baş verməsinin dəqiq vaxtının məlum olub-olmaması;
- hadisənin sığorta hadisəsi olmasını sübut etmək üçün Sığortalıda həmin anda kifayət qədər məlumatların olub-olmaması;
- ziyanın halları və miqdarının məlum olub-olmaması.

Baş verməsi nəticəsində üçüncü şəxslər qarşısında Sığortalının məsuliyyətini yaradan və sığorta müqaviləsi ilə əhatə edilən faktiki və potensial hadisələr barədə Sığortalının məlumat aldığı an da ziyanın aşkar edilməsi vaxtı kimi sayılır və bu zaman hadisələrin konkret halları və məsuliyyətin həcminin məlum olub-olmaması vacib deyildir.
İlkin məlumat, belə məlumatın verilmə anında Sığortalıya məlum olan və sığorta hadisəsinin əlamətləri olan hadisənin baş verməsi halları barədə informasiyanı mümkün qədər tam və hərtərəfli əks etdirməlidir (tarix, vaxt, yeri, güman edilən səbəblər, hadisəyə cəlb olunan şəxslərin ad və ünvanları və s) və sığorta müqaviləsinin nömrəsini daxil etməlidir.
Yazılı təsdiq sığorta hadisəsinin əlamətləri olan hadisənin baş verməsi Sığortalıya məlum olan kimi bu Qaydalarda nəzərdə tutulmuş müddətdə poçt, teleqraf yaxud faks rabitəsi vasitəsilə Sığortaçının ünvanına göndərilməli, yaxud Sığortaçının nümayəndəsinə verilməlidir.
Mübahisə yaranan zaman, bu öhdəliyin lazımi qaydada yerinə yetirilməsi faktı müvafiq yazılı sübut ilə təsdiq olunmalıdır.
Əgər sığorta hadisəsinin baş verməsi barədə Sığortaçının vaxtında xəbər tutması və ya Sığortaçıda belə məlumatların yoxluğunun onun sığorta ödənişini vermək öhdəliyinə hər hansı təsirinin olmaması sübut edilməzsə, bu bənddə nəzərdə tutulan öhdəliyin yerinə yetirilməməsi Sığortaçıya sığorta ödənişi verməkdən imtina etməyə hüquq verir.

11.3.2. Mövcud şəraitdə zərərin qarşısının alınması (azaldılması) (o cümlədən qeyri-qanuni alınmış pul vəsaitlərinin tutulması) və sığorta olunmuş əmlakın xilas edilməsi üçün ağlabatan və mümkün tədbirləri həyata keçirmək; belə tədbirlər görülərkən, Sığortalı Sığortaçının göstərişlərinə riayət etməlidir.
Sığortaçı mümkün ziyanların azaldılması üçün ağlabatan və mümkün tədbirlərin Sığortalı tərəfindən qəsdən görülməməsi nəticəsində yaranan ziyanların ödənilməsindən azad olunur.

11.3.3. Sığorta hadisəsinin əlamətlərinə malik olan halların baş verməsinə səbəb olan hüquqazidd hərəkətlər (o cümlədən, saxta banknot və sikkələrin qəbul edilməsi, saxta qiymətli kağızların və/və ya ödəniş sənədlərinin alınması faktları) barədə dərhal daxili işlər orqanlarına məlumat vermək.

11.3.4. Sığorta hadisəsinin əlamətləri olan hadisənin baş verməsi faktı ilə əlaqədar istintaq orqanları tərəfindən cinayət işinin açılması və cinayət-prosessual hərəkətlərinin başlanması barədə dərhal Sığortaçıya məlumat vermək.

11.3.5. Sığorta hadisəsinin əlamətlərinə malik olan halların baş verməsinə səbəb olan hüquqazidd hərəkətlərin təhqiqatının gedişi, bu zaman aşkar edilən və ehtimal olunan həmin halın səbəb və nəticələri barədə Sığortaçını müntəzəm surətdə xəbərdar etmək, belə təhqiqat işində iştirak etmək.

11.3.6. Sığortaçının nümayəndələrinin, polis işçilərinin və digər səlahiyyətli orqanların nümayəndələrinin hadisə yerinə gəlişini gözləmədən, sığorta hadisəsinin əlamətləri olan hadisənin səbəb və şəraiti barədə mümkün olan ilkin məlumatları toplamaq (məsələn, səlahiyyətli orqanların, eləcə də hadisənin şahidlərinin iştirakı ilə hadisənin şəraiti barədə sərbəst formada akt tərtib etmək, imkan daxilində foto, yaxud video çəkiliş vasitəsilə hadisənin ilkin nəticələrinin görünüşünü qeydə almaq) və sonrakı təhqiqat üçün Sığortaçıya vermək.

11.3.7. Zərər dəymiş obyekti (sığorta olunmuş əmlakı) onun sığorta hadisəsinin əlamətləri olan hadisənin baş verməsindən sonrakı vəziyyətində olduğu şəkildə Sığortaçının mütəxəssisləri tərəfindən baxış keçiriləndək saxlamaq; Sığortalı hadisənin ilkin nəticələrinin görünüşünü təhlükəsizlik tədbirləri və ya ziyanın miqdarının azaldılması zərurətindən irəli gəldiyi hallarda, yaxud Sığortaçının buna icazəsi olarsa, sığorta hadisəsinin əlamətləri olan hadisənin baş verməsi barədə Sığortaçıya məlumat verilməsindən 5 (beş) gün sonra dəyişmək hüququna malikdir.

11.3.8. Əmlakın məhv olması, yaxud ona zərər dəyməsi halında zərər dəymiş, məhv olmuş yaxud itmiş əmlakın siyahısını mühasibat uçotu sənədləri ilə təsdiq olunmaqla Sığortaçıya təqdim etmək; bu siyahılar Sığortaçı ilə razılaşdırlıan müddətdə, lakin istənilən halda sığorta hadisəsinin əlamətləri olan hadisənin baş verməsi günündən bir ay gec olmayaraq təqdim olunmalıdır; siyahılar zərər dəymiş əşyaların sığorta hadisəsinin əlamətləri olan hadisə baş verən günə olan dəyəri göstərilməklə tərtib olunur; siyahıların tərtib olunması üzrə xərcləri Sığortalı çəkir.

11.3.9. Sığorta hadisəsi baş verdikdə sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün tələb olunan sənədləri bu Qaydalarda nəzərdə tutulmuş müddətdə Sığortaçıya təqdim etmək;

11.3.10. sığorta hadisəsinin əlamətləri olan hadisənin baş verməsi faktını və səbəbini, eləcə də dəymiş zərərin miqdarını müəyyən etmək üçün zəruri olan sənədləri Sığortaçıya təqdim etmək. Baş vermiş hadisənin xarakterindən asılı olaraq belə sənədlər o cümlədən aşağıdakılar ola bilər:

- hesablar üzrə əməliyyatların aparılması üçün əsas olan və saxta imza, yaxud digər hüquqazidd dəyişiklikləri ehtiva edən ödəniş tapşırıqlarının və digər sənədlərin əsli və ya surəti;
- saxta imza və ya digər hüquqazidd dəyişiklikləri ehtiva edən qiymətli kağızların, eləcə də saxta qiymətli kağızların əsli və yaxud surəti;
- saxta imza yaxud digər hüquqazidd dəyişiklikəri daxil edən tapşırıqların və digər sənədlərin icra üçün qəbul edilməsi nəticəsində hesablar üzrə əməliyyatların aparılmasını təsdiq edən sənədlər;
- saxta olan və yaxud saxta imza və ya qəsdən edilmiş digər hüquqazidd dəyişiklikləri ehtiva edən qiymətli kağızlarla əməliyyatların aparılmasını təsdiq edən sənədlər;
- saxta banknotların (sikkələrin) qəbul edilməsini təsdiq edən sənədlər;
- daşınma üçün qiymətli əmlakın (maliyyə sənədlərinin) qəbul olunması zamanı Sığortalının işçisinin və ya kuryer (inkassator) şirkətinin səlahiyyətli işçisinin imzaladığı qəbz;
- sövdələşmə təşkilatının (sövdələşmənin təşkilatçısının) arayış hesabı – əmlakın həqiqi dəyərinin, eləcə də əmlakın bilavasitə sığorta hadisəsinin baş verməsindən əvvəlki dəyərinin müəyyən edilməsi üçün;
- Sığortalının müştəriyə zərər vurduğu halda, Sığortalının öz müştərisi ilə müqavilələrinin əsli, yaxud surəti;

- məsuliyyətində Sığortalıya məxsus qiymətli kağızların və ya digər qiymətli əmlakın saxlandığı hüquqi şəxslərlə Sığortalı arasında bağlanmış saxlanma müqavilələrinin və ya digər müqavilələrin əsli, yaxud surəti;
- Sığorta hadisəsinin əlamətləri olan hadisənin baş verməsinə səbəb olan şəraitin təhqiq edilməsində daxili işlər orqanlarının, prokurorluq və digər hüquq-mühafizə orqanlarının iştirak etdiyi bütün hallarda – daxili işlər orqanları tərəfindən cinayət işinin açılması barədə yazılı xəbərdarlıq və yaxud cinayət işinin açılmasından imtinaya dair qərarın surəti, daxili işlər orqanlarının sığorta hadisəsinin əlamətləri olan hadisəyə dair rəyi (əgər belə rəy varsa);
- sığorta hadisəsinin əlamətləri olan hadisələrə dair digər səlahiyyətli orqanların aktları (əgər varsa);
- Sığortalının əmlakının uçotu, saxlanması, istifadəsi, daşınması, sövdələşmə, depozitar əməliyyatlar, reyestrin aparılması üzrə əməliyyatlar və s. barədə daxili təlimatlar (əgər belə təlimatlar varsa).
- Sığortaçı belə sənədlərin siyahısını dəyişmək hüququna malikdir.
- Bu bənddə göstərilənlərdən başqa, Sığortaçı Sığortalıdan, o cümlədən üçüncü şəxslərdən digər sənədləri də istəyə bilər (əgər konkret şərait nəzərə alınmaqla istənilən sənədlərin Sığortaçıda olmaması onun üçün sığorta hadisəsi faktının və/və ya ziyanın miqdarının müəyyən edilməsini qeyri-mümkün edirsə). Sığortalı istnənilən sənədləri təqdim etməlidir. Məhkəmə mübahisəsi halları yarandıqda, sığorta hadisəsinin əlamətləri olan hadisə ilə bağlı təhqiqat aparmaq üçün həmin sənədlərin təqdim edilməsinin zəruriliyini sübut etmək vəzifəsi Sığortaçının üzərinə düşür.

11.4. Sığortaçı aşağıdakı hüquqlara malikdir:

11.4.1. Əgər sığorta müqaviləsi bağlandıqdan sonra müəyyən edilərsə ki, Sığortalı Sığortaçıya sığorta obyekti barədə bilərəkdən yanlış məlumat vermişdir, sığorta müqaviləsinin etibarsız hesab edilməsini tələb etmək;

11.4.2. Sığorta riskinin artmasına səbəb olan hallar barədə xəbərdar ediləndən sonra sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini və ya riskin artmasına uyğun olaraq əlavə sığorta haqqının ödənilməsini tələb etmək. Əgər Sığortalı sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsinə, yaxud əlavə sığorta haqqının ödənilməsinə etiraz edirsə, Sığortaçı müqaviləyə xitam verilməsini tələb etmək hüququnu əldə edir.

11.4.3. Sığortalı tərəfindən hazırki Qaydaların 11.2.14-cü bəndində nəzərdə tutulmuş öhdəliyi yerinə yetirilmədikdə, sığorta müqaviləsinə xitam verilməsini və müqaviləyə xitam verilməsi nəticəsində dəyən ziyanların ödənilməsini tələb etmək. Əgər sığorta riskini artıran hallar aradan qalxmışdırsa, Sığortaçı sığorta müqaviləsinə xitam verilməsini tələb edə bilməz.

11.4.4. Əgər Sığortalının təşəbbüsü ilə sığorta hadisəsi nəticəsində yaranan ziyanın məbləğinin dəqiqləşdirilməsi üçün əlavə ekspertiza təyin edilibsə, sığorta ödənişinin aparılması müddətini uzatmaq. Bu halda, sığorta ödənişi sığorta müqaviləsində göstərilmiş müddətdə, lakin Sığortaçı tərəfindən əlavə ekspertizanın nəticələrini əks etdirən sənədlərin alındığı tarixdən başlayaraq hesablanmaqla həyata keçirilir.

11.4.5. Sığortalının Sığortaçının ödədiyi ziyana görə məsuliyyət daşıyan şəxsə qarşı öz tələb hüququndan imtina etdiyi, yaxud Sığortalının səhvi üzündən bu hüququn həyata keçirilməsi qeyri-mümkün olduğu hallarda, sığorta ödənişini tam həcmdə, yaxud qismən ödəməmək və artıq ödənilmiş məbləğin geri qaytarılmasını tələb etmək;

11.4.6. Ziyanın miqdarının dəqiqləşdirilməsi və baş vermə şəraitinin təhqiqatının aparılması məqsədilə zərərin qiymətləndirilməsi üzrə müstəqil mütəxəssisi təyin etmək. Sığortalı Sığortaçının göndərdiyi mütəxəssisə onun fəaliyyətində hər cür köməklik göstərməli, təhqiqat aparmaq üçün ona zəruri olan bütün sənədləri təqdim etməlidir. Sığortaçının göndərdiyi mütəxəssisin ziyanın şəraiti və miqdarı barədə rəyi Sığortaçının mövqeyi sayılır;

11.4.7. Sığortalı ilə razılaşdırılmaqla, Sığortalıya qarşı üçüncü tərəfin iddiasından müdafiə üzrə onun mənafelərini təmsil etmək. Sığortalının mənafelərini təmsil etmək Sığortaçının sığorta ödənişini həyata keçirməyə razılıq verməsi kimi qiymətləndirilə bilməz.

11.4.8. Sığortalının hazırki Qaydaların 11.2 və/və ya 11.3-cü bəndlərində sadalanan vəzifələri yerinə yetirməməsinin sığorta hadisəsinin baş verməsinə, yaxud ziyanın miqdarına təsir etməsi dərəcəsinə uyğun olaraq sığorta ödənişinin verilməsindən imtina etmək və yaxud zərərin əvəzini tələb olunandan aşağı məbləğdə ödəmək.

11.4.9. Əgər aşağıdakılar baş vermişdirsə, sığorta ödənişini aparmaqdan imtina etmək:

- Əgər Sığortaçı sığorta hadisəsinin baş verməsindən sonra bu Qaydalarda nəzərdə tutulmuş müddət ərzində bu barədə xəbərdar edilməmişdirsə və Sığortaçının sığorta hadisəsinin baş verməsindən vaxtında xəbər tutmasının və ya onda bu barədə məlumatların olmamasının sığorta ödənişini həyata keçirməsinə təsir etməməsi sübut edilməmişdirsə;
- sığorta hadisəsi Sığortalının qəsdən etdiyi hərəkətləri nəticəsində baş vermişdirsə;
- ziyan bu Qaydaların 7-ci maddəsinin qüvvəsi altına düşürsə.

11.5. Sığortalı aşağıdakı hüquqlara malikdir:

11.5.1. Ziyanın qarşısının alınması və onun miqdarının aşağı salınması üzrə sığortalının göstərişinə əsasən məqsədəuyğun şəkildə çəkilmiş xərclərin Sığortaçı tərəfindən ödənilməsi.

11.5.2. Sığorta müqaviləsinə əlavə və dəyişikliklərin edilməsi üçün təkliflərlə Sığortaçıya müraciət etmək.

11.6. Sığorta müqaviləsində tərəflərin Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmayan digər hüquq və öhdəlikləri də müəyyən oluna bilər.

**Maddə 12. Sığorta hadisəsinin baş verməsi zamanı Sığortalının vəzifələri**

12.1. Bu Qaydalar əsasında bağlanmış Sığorta müqaviləsi üzrə sığorta hadisəsinin baş verməsi barədə Sığortalı, yaxud Faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində Sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda qanunvericiliyə uyğun olaraq həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

12.2. Sığorta müqaviləsində, yaxud şəhadətnaməsində sığorta hadisəsinin baş verməsi barədə məlumat verməyin müddəti və (və yaxud) metodu göstərilmişdirsə, bu müəyyən olunmuş müddətdə və həmin metodla həyata keçirilməlidir.

12.3. Sığortalı sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları Sığortaçıya təqdim etməlidir.

12.4. Sığortalı Sığortaçıya araşdırma aparmağa və ona zərərin baş verdiyi şəraiti, onun xarakteri və həcmini müəyyənləşdirmək üçün əhəmiyyət daşıyan sənədlərlə maneəsiz tanış olmaq imkanını verməlidir;

12.5. Sığorta təminatı verildikdən sonra Sığortalının itkiləri üçüncü şəxslər tərəfindən tam şəkildə, yaxud qismən ödənilərsə, o cümlədən qanunvericilikdə nəzərdə tutulmuş iddia müddəti ərzində qanuna görə Sığortalını sığorta təminatını əldə etmək hüququndan tam şəkildə və ya qismən məhrum edən şərait yaranarsa, üçüncü şəxslərdən vəsaitləri aldıqdan sonra, yaxud Sığortaçıdan qanun əsasında sığorta təminatının müvafiq hissəsini Sığortaçıya qaytarmaq əsasında ödənişinin ödənilmə tələbi alındıqdan sonra 5 iş günü ərzində müvafiq məbləği geri qaytarmalıdır.

12.6. Sığorta hadisəsinin baş verməsi və vurulan zərərin həcminin sübuta yetirilməsi öhdəliyini Sığortalı daşıyır.

12.7. Sığortalı baş vermiş sığorta hadisəsi ilə bağlı sığorta ödənişinin verilməsi tələbi ilə Sığortaçıya müraciət edərkən aşağıdakıları etməlidir:

12.7.1. Yaranmış şəraitdə ziyanın azaldılması və sığorta edilmiş əmlakın xilas edilməsi üçün bütün ağlabatan və mümkün tədbirləri görmək; əgər mümkündürsə, Sığortalı onun yerinə yetirməli olduğu təlimatları Sığortaçıdan istəyə bilər;

12.7.2. Sığortaçıya və ya onun nümayəndələrinə zərər dəymiş əmlaka baxış keçirməyə və ya təftiş etməyə, sığorta hadisəsinin səbəbləri və ziyanın miqdarı ilə bağlı təhqiqat aparmağa, ziyanın azaldılması və sığorta olunmuş əmlakın xilas edilməsi üzrə tədbirlərdə iştirak etməyə imkan yaratmaq;

12.7.3. Sığortaçının tələbi ilə, ona zərərin miqdarı və sığorta olunmuş əmlaka dəyən ziyan və ya həmin əmlakın məhv olması ilə bağlı mühakimə yürütmək üçün zəruri olan, o cümlədən sığorta hadisəsinin baş verməsini təsdiq edən, onun baş verməsi şəraitini təsvir edən, dəymiş zərərin miqdarını təsdiq edən bütün məlumatları, eləcə də təqdim olunması zəruriyyəti baş verən hadisənin xarakteri və qanunvericiliyin tələbləri ilə müəyyən olunan digər sənədləri yazılı şəkildə təqdim edir;

12.7.4. Zərər dəymiş əmlakı onların sığorta hadisəsindən sonra olduqları şəkildə saxlamaq. Sığortalı sığorta hadisəsinin görünüşünü Sığortaçının icazəsi ilə və yaxud sığorta hadisəsinin baş verməsi barədə Sığortaçıya məlumat verilməsindən iki həftə keçdikdən sonra yalnız o halda dəyişmək hüququna malikdir ki, bu, təhlükəsizlik tədbirləri, ziyanın miqdarının azaldılması zəruriyyəti baxımından vacibdir. Əgər Sığortalı yuxarıdakı səbəblər üzündən sığorta hadisəsinin görünüşünü dəyişmək istəyirsə, o sığorta hadisəsinin görünüşünün foto və ya video çəkilişin köməyilə və yaxud digər analoci yolla tam qeydini aparmalıdır.

12.8. Sığortalı tərəfindən yuxarıda göstərilən öhdəliklərdən hər hansı birinin yerinə yetirilməməsinə sığorta müqaviləsinin əhəmiyyətli pozulması kimi baxılır və Sığortaçının müqaviləni icra etməkdən birtərəfli qaydada imtina etməsinə əsasverir.

12.9. Sığortaçı və onun nümayəndələri sığorta olunmuş əmlakın xilas edilməsində və saxlanmasında iştirak etmək, bu zaman bütün zəruri tədbirləri görmək və onlarla bağlı göstərişlər vermək hüququna malikdir, lakin Sığortaçının və onun nümayəndələrinin bu hərəkətlərinə Sığortaçının sığorta ödənişi etmək öhdəliyinin tanınması kimi baxıla bilməz. Əgər Sığortalı buna maneçilik törədirsə, sığorta ödənişi ziyanın bu maneçilk nəticəsində artması məbləğində azaldılır.

12.10. Sığortaçının nümayəndəsi Sığortalının sığorta hadisəsi barədə məlumatını gözləmədən zərər dəymiş əmlaka baxış keçirməyə başlamaq hüququna malikdir. Sığortalının buna mane olmaq hüququ yoxdur.

**Maddə 13. Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri, sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı**

13.1. Sığorta hadisəsinin baş verməsi faktı tanınarkən Sığortaçı dəymiş ziyan həcmində, lakin sığorta müqaviləsində müəyyən olunmuş sığorta məbləğindən çox olmamaq şərtilə sığorta ödənişi həyata keçirir.
Ziyan dedikdə, Sığortalının öz pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olacağı xərcləri, onun əmlakının itməsi və yaxud onun əmlakına zərər dəyməsi (real zərər), eləcə də Sığortalının hüququ pozulmasaydı mülki dövriyyənin adi şəraitində əldə edə biləcəyi əldən çıxmış fayda başa düşülür.

Sığorta hadisəsinin xarakterindən asılı olaraq, belə ziyanlar, o cümlədən aşağıdakılar ola bilər:

- sığorta olunmuş əmlakın tam məhv olması zamanı – köhnəlmə xərcləri və satıla bilən, yaxud funksional təyinatı üzrə istifadə oluna bilən qalıqların dəyəri çıxılmaqla, əmlakın həqiqi dəyəri;
- əmlaka qismən zərər dəyməsi zamanı – zərər dəymiş əmlakın sığorta hadisəsinə qədər olduğu vəziyyətə gətirmək üçün çəkilən zəruri xərclər, itmiş qiymətli kağızların, digər qiymətli əmlakın və/və ya maliyyə sənədlərinin bərpası və ya dəyişdirilməsi üzrə sərf olunan xərclər;
- digər hallarda – vaxtından əvvəl silinmiş və yaxud vaxtında alınmamış pul vəsaitləri məbləğinə hesablanmış faizlərin məbləği; əvəzində mal yaxud xidmətlər alınmadan Sığortalı tərəfindən silinmiş (ödənilmiş) pul vəsaitlərinin məbləğləri; tam alınmamış və ya artıq ödənilmiş pul vəsaitləri məbləğləri; həqiqi qiymətli kağızların dəyəri; qəbul edilmiş saxta banknotların (sikkələrin) nominal dəyərinə ekvivalent olan pul vəsaitləri məbləği; Sığortalının müştərisinə dəymiş ziyanın ödənilməsi üzrə Sığortalının xərcləri, faizlər, dividendlər, komissiyalar.

13.2. Hazırki Qaydalar üzrə sığorta ödənişinin məbləğinə aşağıdakılar daxildir:

13.2.1. Əmlakın məhv olması (itməsi) yaxud ona zərər dəyməsi zamanı – Sığortalıya dəymiş əmlak ziyanının ödənilməsi üzrə xərclər.

Göstərilən xərclər əmlakın məhv olması, yaxud ona zərər dəyməsi nəticəsində yaranan real zərərlə müəyyən olunur, bu zaman:

a) sığorta olunmuş əmlak tam məhv olduqda, real zərər məhv olmuş əmlakın satıla bilən və ya funksional təyinatı üzrə istifadə oluna bilən qalıqlarının dəyəri çıxılmaqla, bilavasitə sığorta hadisəsi baş verdikdən əvvəl mövcud olan dəyərinə bərabərdir (Sığortalının binalarına və/və ya Sığortalının əmlakına münasibətdə – köhnəlmə xərcləri çıxılmaqla sığorta (həqiqi) dəyəri). Sığortalı belə qalıqlardan imtina etmək hüququna malik deyildir.
Bu Qaydalarda tam məhv olma dedikdə, sığorta olunmuş əmlakın bərpasının texniki cəhətdən qeyri-mümkün olması zamanı itirilməsi, zərər dəyməsi və ya məhv olması, yaxud elə vəziyyət başa düşülür

ki, bu zaman həmin əmlakın təmiri və ya bərpası üzrə xərclər onun bilavasitə sığorta hadisəsinin baş verməsindən əvvəl mövcud olan dəyərindən (bu dəyər mühasibat uçotunun məlumatları əsasında hesablanılan köhnəlmə nəzər alınmaqla müəyyən edilir) artıq olur.

Qiymətli kağızlar məhv olduqda hüquqlarının bərpası mümkün olmayan təqdim edənə, onların hazırki Qaydaların 13.3 bəndinin «b» yarımbəndinə uyğun olaraq məyyən edilən dəyəri ödənilir.

Hazırki Qaydalar üzrə qiymətli kağızın məhv olması kimi onun elə vəziyyəti qəbul edilir ki, həmin qiymətli kağızın məcburi rekvizitlərindən heç olmasa biri məhv olsun.

Hazırki Qaydalar üzrə həqiqi banknotların, sikkələrin məhv olması kimi onların elə vəziyyəti qəbul edilir ki, onlar həmin vəziyyətdə dövriyyəyə qəbul edilə bilməsin.

b) əmlaka qismən zərər dəyən zaman real zərər əmlakın sığorta hadisəsinə qədər olduğu vəziyyətə gətirilməsi üçün zəruri olan xərclərin məbləği kimi müəyyən edilir.

Əgər sığorta olunmuş obyektin sığorta məbləği onun sığorta dəyərindən azdırsa, onda Sığortaçı Sığortalıya sonuncuya dəymiş ziyanın sığorta məbləğinin sığorta dəyərinə nisbətinə mütənasib olan hissəsini ödəyir.

Hazırki Qaydalar üzrə zərər dəymiş əmlakın sığorta hadisəsinin baş verməsindən əvvəlki vəziyyətə gətirilməsi üçün xərclər (bərpa xərcləri) aşağıdakıları daxil edir:

- təmir üçün materiallar və ehtiyat hissələri üzrə xərclər;
- təmir işlərinin haqqının ödənilməsi ilə bağlı xərclər;
- materialların təmir yerinə çatdırılması üzrə xərclər və sığorta olunmuş obyektin bilavasitə sığorta hadisəsinin baş verməsindən əvvəlki vəziyyətinə bərpa edilməsi üçün zəruri olan digər xərclər;
- itirilmiş qiymətli kağızların və ya maliyyə sənədlərinin bərpası, yaxud dəyişdirilməsi üzrə xərclər. Bu zaman, hüquqlarının bərpası mümkün olan adlı və ya adsız qiymətli kağızlar məhv olduqda, onların bərpası (dəyişdirilməsi) üzrə xərclər ödənilir.
- Aşağıdakılar bərpa üzrə xərclərə aid deyil:
- sığorta olunmuş obyektin dəyişdirilməsi yaxud yaxşılaşdırlıması ilə bağlı əlavə xərclər;
- təzədən quraşdırılma, profilaktik təmir və xidmət üzrə xərclər, eləcə də sığorta hadisəsinin baş verməsi faktından asılı olmayaraq zəruri olan digər xərclər;
- iş vaxtından əlavə vaxtda, gecə vaxtı, rəsmi bayramlarda işə görə əmək haqqına əlavələr;
- təmir üzrə işlərin aparılmasının təcililiyi ilə əlaqədar əlavə xərclər;
- əgər əsas təmir üzrə xərclərlə birgə əsas təmirin dəyərindən artıqdırsa, müvəqqəti təmir üzrə xərclər;
- zəruri olandan artıq çəkilmiş digər xərclər.

Bərpa xərcləri sığorta hadisəsinin baş verdiyi tarixə qüvvədə olan qiymətlər əsasında hesablanılır.

13.2.2. Sığortalıya hazırki Qaydaların 13.2.1 bəndində göstərilənlərdən başqa ziyan dəydikdə, əgər həmin ziyanın səbəbi hazırki Qaydaların 6.1 bəndinə uyğun olaraq sığorta hadisəsi hesab edilirsə, aşağıdakılar ödənilir:

- ödəniş vasitəsi və ya borcun bağlanması vasitəsi kimi istifadə olunan pul vəsaitlərinin vaxtından əvvəl silinməsi (ödənilməsi) və yaxud alınmasına gecikmə ilə bağlı ziyan dəyərsə, Azərbaycan Respublikası Milli Bankının yenidənmaliyyələşdirmə dərəcəsi əsasında vaxtından əvvəl silinmiş və ya vaxtında alınmamış pul vəsaitlərinin məbləğinə pul vəsaitlərinin faktiki silindiyi (ödənildiyi) tarixdən həmin silinmənin baş verməli olduğu tarixə qədərki dövr və yaxud gecikmə dövrü üçün hesablanan faiz məbləğləri;
- ödəniş vasitəsi və ya borcun bağlanması vasitəsi kimi istifadə olunan pul vəsaitlərinin məbləğinin tam həcmdə alınmaması və ya artıq ödənilməsi ilə bağlı ziyan dəyərsə, tam alınmamış və yaxud artıq ödənilmiş pul vəsaitlərinin məbləği;
- əvəzində istehlak dəyəri olan mal və ya xidmətlər alınmadan pul vəsaitlərinin silinməsi (ödənilməsi) ilə bağlı ziyan dəyərsə (Sığortalının hesablarından pul vəsaitlərinin saxta sənədlər üzrə silinməsi, saxta qiymətli kağızların əldə olunması və sair buna oxşar hallar), silinmiş (ödənilmiş) pul vəsaitlərinin məbləğləri;
- Oğurlanmış, itirilmiş (o cümlədən hüquqazidd olaraq dəyişdirilən) qiymətli kağızların və ya saxta qiymətli kağızların əldə olunması ilə bağlı ziyan dəyərsə,, sığorta ödənişinin məbləği analoci (həqiqi) qiymətli kağızların hazırki Qaydaların 13.3 bəndinin «b» yarımbəndinə uyğun olaraq müəyyən edilən dəyərindən artıq ola bilməz;
- Sığortalı tərəfindən saxta banknotların (sikkələrin) qəbul edilməsi ilə bağlı ziyanla dəyərsə, qəbul edilən saxta banknotların (sikkələrin) nominal dəyərinə ekvivalent olan pul vəsailərinin məbləği;

- Sığortalının müştərisinə zərər dəyən bütün hallarda Sığortalının müştərisinə dəyən real zərərin ödənişi üçün Sığortalının xərcləri;

13.2.3. Sığortaçının əvəzini ödəməli olduğu ziyanların azaldılması üzrə Sığortalı tərəfindən çəkilən xərclər, hətta həmin xərclər müsbət nəticələr verməsə belə, Sığortaçının göstərişlərinin yerinə yetirilməsi üçün zəruri olaraq sərf edilmişdirsə.
Belə xərclər onların digər ziyanların əvəzinin ödənilməsi ilə birgə sığorta məbləğindən artıq olmasından asılı olmayaraq sığorta məbləğinin sığorta dəyərinə (hazırki Qaydaların 3.2.2, 3.2.7, 3.2.8 bəndlərində göstərilən risklər üzrə) nisbətinə mütənasib olaraq ödənilir.

13.2.4. Sığortaçının yazılı göstərişlərinin icrası, yaxud Sığortaçının yazılı razılığı ilə çəkilmiş olması şərtilə, Sığortalının sığorta hadisələri üzrə işlərin məhkəmə orqanlarında aparılması üçün çəkdiyi xərclər.

13.3. Sığorta ödənişi aşağıdakı şərtlərin nəzərə alınması ilə həyata keçirilir:

a) Hazırki Qaydaların 13.2 bəndində göstərilən xərclər sığorta ödənişinin məbləğinə Sığortalının bütün növ sığorta hadisələri üzrə təqsirli şəxslərdən, üçüncü şəxslərdən ziyana görə aldığı istənilən təzminat məbləği çıxılmaqla daxil edilir. Əgər Sığortalı belə təzminatları sığorta ödənişi aparıldıqdan sonra alınmışdırsa, Sığortalı artıq ödənilmiş məbləği Sığortaçıya geri qaytarmalıdır.

b) Qiymətli kağızlarla aparılan əməliyyatlarla bağlı baş verən bütün növ sığorta hadisələri üzrə sığorta ödənişinin məbləği, həmin qiymətli kağızların müvafiq təşkilat tərəfindən təşkil edilmiş sövdələşmələrin başa çatması anına olan dəyəri (sığorta dəyəri) əsasında müəyyən edilir, bir şərtlə ki, həmin təşkilat tərəfindən təşkil edilmiş sövdələşmələrin nəticələrindən sığorta hadisəsinin baş vermə anına olan sığorta dəyərinin müəyyən edilməsi üçün istifadə olunsun.
Əgər sığorta hadisəsinin baş verdiyi gün qiymətli kağızlarla bağlı sövdələşmələr aparılmamışdırsa, onda qiymətli kağızların dəyərinin müəyyən edilməsi üçün sığorta hadisəsinin baş verdiyi tarixdən əvvəlki günə həmin qiymətli kağızlar üzrə sövdələşmələrə dair məlumatlar istifadə olunur. Sövdələşmələrin təşkilatçısının müəyyən edilməsi qaydası sığorta müqaviləsində göstərilməlidir. Əgər bu şərti yerinə yetirmək mümkün deyildirsə, qiymətli kağızların dəyəri Sığortaçı ilə Sığortalı arasında qarşılıqlı razılaşma yolu ilə, zəruri hallarda müstəqil ekspertin cəlb edilməsi ilə müəyyən edilməlidir. Bu zaman yaranan mübahisələr məhkəmə qaydasında həll edilə bilər.

c) Xarici valyuta da daxil olmaqla, pul nişanları ilə aparılan əməliyyatlarla bağlı bütün növ sığorta hadisələri üzrə sığorta ödənişinin məbləği Azərbaycan Respublikası Milli Bankının rəsmi məzənnəsinə uyğun olaraq pul nişanlarının nominal dəyəri əsasında müəyyənləşdirilməlidir. Əgər sığorta hadisəinin baş verdiyi gün Azərbaycan Respublikası Milli Bankı xarici valyutanın rəsmi məzənnəsini müəyyən etməmişdirsə, onda ziyanın miqdarının müəyyən edilməsi üçün Azərbaycan Respublikası Milli Bankının sığorta hadisəsinin baş verdiyi tarixdən əvvəlki günə müəyyən etdiyi xarici valyutanın rəsmi məzənnəsindən istifadə olunur.

d) Qiymətli daşların və metalların itməsi ilə bağlı olan bütün növ sığorta hadisələri üzrə sığorta ödənişinin məbləği sığorta hadisəsinin baş verdiyi tarixə qiymətli daşların və metalların Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq müəyyən edilən dəyəri əsasında müəyyən edlməlidir. Bu zaman, əgər sığorta müqaviləsində (sığorta dəyəri müəyyən edilərkən) qiymətli metalların dəyərinin beynəlxalq bazarda tətbiq olunan qiymətlər əsasında müəyyən edilməsi nəzərdə tutulmayıbsa, qiymətli metalların dəyəri Azərbaycan Respublikasının ərazisində qüvvədə olan və Azərbaycan Respublikası Maliyyə Nazirliyi və ya Azərbaycan Respublikası Milli Bankı tərəfindən təsdiq olunmuş buraxılış qiymətləri əsasında müəyyən edilir.

13.4. Sığorta məbləğinin, azadolma məbləğinin və tələblərin xarici valyuta ilə ifadə olunduğu hallarda, bütün ödənişlər ya Azərbaycan Respublikası Milli Bankının ödənişin həyata keçirildiyi tarixə olan rəsmi məzənnəsi əsasında Azərbaycan manatı, ya da Azərbaycan Respublikasının valyuta qanunvericiliyinə müvafiq olduğu hallarda hər hansı xarici valyuta ilə həyata keçirilə bilər.

13.5. Nağdsız hesablaşma zamanı sığorta ödənişinin aparıldığı gün kimi pul vəsaitlərinin Sığortaçının hesablaşma hesabından silindiyi gün sayılır.

13.6. Əgər sığorta hadisəsinin baş verdiyi tarixə Sığortalı tərəfindən digər sığorta təşkilatları ilə bağlanmış və hazırki Qaydaların 6.1 bəndində göstərilən hadisələri sığorta hadisəsi kimi tanıyan digər sığorta müqavilələri

qüvvədədirsə, onda sığorta hadisəsinin baş verməsi faktı tanınarkən Sığortaçı Sığortalıya tərəflər arasında bağlanmış sığorta müqaviləsi üzrə sığorta məbləğinin Sığortalının bağladığı bütün sığorta müqavilələri üzrə ümumi sığorta məbləğinə nisbətinə mütənasib olan məbləğdə sığorta ödənişi verir. Sığortalı Sığortaçını bütün belə sığorta müqavilələri barədə sığorta şirkətlərinin, sığorta risklərinin və sığorta məbləğlərinin adı göstərilməklə, yazılı formada xəbərdar etməlidir.

13.7. Sığorta ödənişinin verilməsi zamanı Sığortaçı sığorta ödənişi məbləğindən Sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

13.8. Sığortaçı Sığortalı tərəfindən hazırki Qaydaların 11.2 və 11.3 bəndlərində sadalanan öhdəliklərin yerinə yetirilməməsinin sığorta hadisəsinin baş verməsinə və yaxud ziyanların miqdarına təsir elədiyi dərəcədə sığorta ödənişini verməkdən imtina etmək və ya onun məbləğini sənədlə rəsmiləşdirilmiş tələblərlə müqayisədə azaltmaq hüququna malikdir.

13.9. Sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün Sığortalı sığorta hadisəsinin baş verməsi faktını, həmçinin Sığortalanmış əmlaka dəymiş zərərin həcmini göstərən bütün sənədləri, o cümlədən aşağıdakı sənədləri Sığortaçıya təqdim etməlidir:

- 13.9.1. sığorta hadisəsi haqqında yazılı ərizə;
- 13.9.2. Sığorta müqaviləsinin (sığorta şəhadətnaməsinin) əsli;
- 13.9.3. sığorta hadisəsinin baş verməsini faktını təsdiq edən sənədlər;
- 13.9.4. zərərin həcmini müəyyənləşdirən sənədlər;
- 13.9.5. Sığortaçının mülahizəsinə əsasən, sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün lazım olan digər sənədlər.

13.10. Sığorta ödənişinin miqdarının müəyyən edilməsi və ödənilməsi qaydası bu Qaydalara əsasən bağlanan Sığorta müqaviləsi ilə müəyyən edilir.

13.11. Sığorta müqaviləsində azadolma məbləği nəzərdə tutulduğu halda, sığorta ödənişi azadolma məbləği çıxılmaqla ödənilir.

**Maddə 14. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları**

Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, aşağıdakı halların nəticəsində ortaya çıxan istənilən zərərlərin bu sığorta ilə əvəzi ödənilmir və sığorta ödənişinin verilməsindən imtina edilir

14.1. bu Qaydaların 11.2.14. və 12.1-ci bəndlərinin tələblərinə əməl edilməməsi nəticəsində, o cümlədən sığorta predmeti və (və ya) sığorta hadisəsi barəsində Sığortalının Sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində Sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda ;

14.2. Sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

14.3. Sığorta müqaviləsi və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

14.4. Sığortalının sığortalanmış hava nəqliyyatı vasitəsinə dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, Sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

14.5. Sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına Sığortalı tərəfindən maneçilik törədilməsi;

14.6. Sığortalının zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərər vuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;

14.7. baş vermiş hadisənin Sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

14.8. sığorta hadisəsinin sığorta haqqının tam və ya onun ilk hissəsinin ödənilməsi müddəti başa çatdıqdan sonra baş verməsi halında sığorta haqqı ödənilməmiş olduqda;

14.9. sığorta hadisəsinin sığorta haqqının növbəti hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;

14.10. sığorta hadisəsinin bu Qaydaların 9.5-ci bəndində nəzərdə tutulmuş halda Sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda.

14.11. bu Qaydalarda nəzərdə tutulan Mühüm şərtlərin yerinə yetirilməməsi ilə sığorta hadisəsi arasında əlaqənin olub-olmamasından asılı olmayaraq Sığortalının Sığorta müqaviləsində nəzərdə tutulan belə şərtlərə əməl etməməsi;

14.12. yerinə yetirilmədiyi təqdirdə sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına gətirib cıxaran, Sığortalı tərəfindən Sığorta müqaviləsinə, bu Qaydalara və ya qanunvericiliyə əsasən ona həvalə edilən öhdəlik və şərtlərin yerinə yetirilməməsi. Bu halda Sığortaçının verməməyə haqlı olduğu sığorta ödənişinin məbləği, belə yerinə yetirilməmənin sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına təsir dərəcəsinə müvafiq olmalıdır;

14.13. Sığortalının, həmçinin onun nümayəndəsinin qəsdi və ya kobud ehtiyatsızlığı;

14.14.yerinə yetirilmədiyi təqdirdə sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına gətirib çıxaran, Sığortalı tərəfindən Sığorta müqaviləsinə, bu Qaydalara və ya qanunvericiliyə əsasən ona həvalə edilən öhdəlik və şərtlərin yerinə yetirilməməsi. Bu halda Sığortaçının verməməyə haqlı olduğu sığorta ödənişinin məbləği, belə yerinə yetirilməmənin sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına təsir dərəcəsinə müvafiq olmalıdır.

14.15. Sığorta hadisəsinin xarakteri bunu tələb etməsinə baxmayaraq, Sığortalı tərəfindən həmin hadisə barədə səlahiyytli dövlət orqanına məlumat verilmədikdə;

14.16. Sığorta hadisəsinin baş verməsi faktı səlahiyyətli orqan tərəfindən təsdiq edilmədikdə;

14.17. Sığortalı tərəfindən yanğın və mühafizə təhlükəsizliyi qaydalarının qəsdən pozulması.

**Maddə 15. Sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarın qəbul edilməsi müddəti**

15.1. Sığortaçı sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarı bu Qaydaların 13.9-cu maddəsində göstərilən sənədlərin təqdim edildiyi tarixdən 30 iş günü ərzində qəbul edir.

15.2. Qanunvericiliklə və bu Qaydalarla müəyyən edilmiş sığorta ödənişinin verməkdən imtina halları istisna olmaqla, Sığortaçı və yaxud Sığortaçının təyin etdiyi Assistans şirkəti sığorta hadisəsi ilə əlaqədar bütün sənədləri aldıqdan sonra ödəniş aparılmasının forması, qaydası və sair əlaqədar məlumatları əks etdirən ödənişə əsas verən sənədi (sığorta aktı, razılaşma, protokol və s.) tərtib edir və razılaşdırmaq üçün bu sənədi Sığortalıya təqdim edir, yaxud da sığorta ödənişinin verilməsindən imtina olunduğu halda imtinanın səbəblərini əsaslandırmaqla Sığortalıya yazılı məlumat verir.

15.3. Sığortalı ödənişə əsas verən sənədi imzaladıqdan sonra, onu Sığortaçıya qaytarır və Sığortaçı ödənişə əsas verən sənəddə başqa müddət nəzərdə tutulmadıqda bu sənədi aldığı gündən etibarən 30(otuz) iş günü ərzində sığorta ödənişini həyata keçirir.

15.4. Qanunvericilikdə və ya bu Qaydalarda nəzərdə tutulmuş əsaslar aşkar olunduqda və ya əmələ gəldikdə, Sığortaçı verilmiş sığorta ödənişinin geri qaytarılması tələbini irəli sürmək hüququna malikdir.

**Maddə 16. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsi və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti.**

Tərəflər sığorta müqaviləsində nəzərdə tutulmuş öhdəliklərin icra edilmədiyi bütün hallar üçün qanunvericilikdə müəyyən edilmiş məsuliyyəti daşıyırlar.

**Maddə 17. Mübahisələrin həlli qaydası**

17.1. Sığorta müqaviləsindən irəli gələn tələblər üzrə iddia qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş iddia müddəti ərzində irəli sürülə bilər.

17.2. Sığorta müqaviləsi üzrə öhdəliklərin icrası prosesində yaranan mübahisələr danışıqlar yolu ilə həll olunur. Mübahisəli məsələlər üzrə razılaşma əldə olunmadıqda, həmin məsələlər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məhkəmə yolu ilə həll edilir.

**Maddə 18. Sığorta müqaviləsində əlavə şərtlərin nəzərdə tutulması**

Sığorta müqaviləsi bağlanarkən Sığortalı və Sığortaçı qanunvericiliyə zidd olmayan başqa şərtlər barədə razılığa gələ bilərlər.

**Bankların və maliyyə xidmətləri göstərən digər hüquqi şəxslərin risklərinin kompleks sığortası üzrə tarif dərəcələrinin hesablanması və iqtisadi əsaslandırılması**

Bu sığorta məhsulu üzrə təqdim edilmiş Qaydalarda əsasən aşağıdakı ümumi risklər nəzərdə tutulur:

1. Sığortalının sığortalanmış fəaliyyətinin aparılması nəticəsində məruz qaldığı gəlir itkiləri (əlavə xərclər) ;
2. Sığortalının əmlakının itkisi (məhv olması) və ya ona zərər dəyməsi;
3. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində Sığortalının sığortalanmış fəaliyyəti həyata keçirməyi ilə əlaqədar üçüncü şəxslərə vurduğu zərərin əvəzini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödəmək öhdəliyi.

Müqaviləyə daxil edilən hər bir risk növü üçün tarif ayrıca hesablanmalı və yekun tarif onların cəmindən ibarət olmalıdır.

Bu risklərdən birindən sığorta üçün brutto-dərəcənin hesablanma qaydasını göstərək.

Metodikaya əsasən netto-dərəcə (Tn) üçün aşağıdakı düstur doğrudur:

$$Tn = Tə + Tr,$$

Burada:

Tə – netto-dərəcənin əsas hissəsi;

Tr – risk üstəliyidir və onlar üçün aşağıdakı bərabərliklər doğrudur (100 man sığorta məbləğinə müvafiq):

$$Tə = 100 \cdot q \cdot Sö / S , \quad Tr = 1{,}2 \cdot Tə \cdot \alpha(\gamma) \cdot \sqrt{\frac{1-q}{nq}} \ .$$

Bu düsturlardakı parametrlərin aşağıdakı mənaları vardır:

q – bir sığorta müqaviləsi üçün baxılan risk üzrə sığorta hadisəsinin baş verməsi ehtimalı;
Sö - bir sığorta müqaviləsi üçün baxılan risk üzrə orta sığorta ödənişi;
S - bir sığorta müqaviləsi üçün baxılan risk üzrə orta sığorta məbləği;
n – gözlənilən müqavilələrin sayı.

$\alpha(\gamma)$ – nın $\gamma$ - dan ($\gamma$ - təhlükəsizliyin tə'minatı adlanır və yığılan sığorta haqlarının sığorta hadisələri üzrə sığorta ödənişlərinin verilməsinə kifayət etməsi üçün tələb olunan ehtimaldır) asılı olan qiymətləri aşağıdakı cədvəldən götürülür:

Cədvəl 1.

| | | | | | |
|---|---|---|---|---|---|
| $\gamma$ | 0,84 | 0,90 | 0,95 | 0,98 | 0,9986 |
| $\alpha$ | 1,0 | 1,3 | 1,645 | 2,0 | 3,0 |

Brutto-dərəcə üçün məlum Tb = Tn / ( 1- f ) düsturundan (f – yüklənmə) istifadə edilir.

Bu düsturlardan istifadə edərək sığortalanan risklərin tərkib hissələrinə uyğun netto-dərəcələr üçün aşağıdakı cədvəl tərtib edilmişdir:

| Riskin adı | Netto-dərəcə |
|---|---|
| Əməkdaşların düşünülmüş hərəkətlərinin nəticəsi olan risklər | 0,37 |
| Bankın binasında bankın və ya müştərinin qiymətli əmlakının itməsi, zədələnməsi və ya məhv olması | 0,15 |
| Daşınma zamanı qiymətli əmlakın və maliyyə sənədlərinin itməsi və ya zədələnməsi | 0,61 |
| Qiymətli kağızlarda, ödəniş tapşırıqlarında və veksellərdə bilərəkdən edilmiş dəyişikliklər və ya onların saxtalaşdırılması | 0,80 |
| Qiymətli kağızlarla əməliyyatlar zamanı itkilər | 0,66 |
| Saxta banknot və sikkələrə görə olan itkilər | 0,09 |
| Üçüncü şəxslərin qanunazidd hərəkətlərinin nəticəsi olan itkilər | 0,45 |

Beləliklə, ümumi netto-dərəcə üçün:

Tn = 0,37 + 0,15 + 0,61 + 0,80 + 0,66 + 0,09 + 0,45= 3,13,

ümumi brutto-dərəcə üçün isə:

Tb = 4,47 almış oluruq.

Burada 70 % - netto-dərəcə, 30% - yüklənmə nəzərdə tutulmuşdur. Bu, hər 100 man sığorta məbləği üçün brutto-sığorta haqqını təşkil edir

Sığortaçı müəyyən maliyyə nəticələrini və bazar münasibətləri mülahizələrini əsas tutaraq tarif dərəcələrini və brutto-dərəcənin strukturuna daxil olan yüklənmə faizini, o cümlədən yüklənməni təşkil edən komponentlərin faizini fərqli müəyyən edə bilər.